

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Əsrin müqaviləsi" dövlət müstəqilliyinin dünəni, bu günü və sabahıdır



5


# SƏS

№ 172 (7097)

20 sentyabr 2024-cü il.
Qiymәti 60 qәpik


# Böyük Qayıdış:

## Ağdamı, Xankəndini və Şuşanı yenidən dirçəldirik!



2

# Davamlı xarakter alan HƏDSİZLİK




4

## Özəl, yoxsa dövlət bağçaları: Seçimi necə edək?



7

## Paşinyan yenə "sağ çıxdı"



8

## COP29-un özəlliyi nədən ibarətdir?




12

## Əli Kərimli dövrü bitir



10

## ABŞ oliqarxiyası Trampı aradan götürəcək - Amerikalı ekspertlər




13

# Böyük Qayıdış:

## Ağdamı, Xankəndini və Şuşanı yenidən dirçəldirik!

***Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə xalq qarşısında verdiyi bütün vədləri səylə, ardıcıl və sistemli surətdə yerinə yetirir. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı hər bir vətəndaşda gələcəyə böyük inam və əminlik yaradır. Prezident İlham Əliyev qəbul etdiyi praqmatik, real qərarlarla ölkəmizin dinamik yüksəlişini təmin edib. Dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur.***

Yeni reallıqlar yaradan Azərbaycan dinamik inkişaf dövrünü yaşayır. 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan gələcək inkişaf strategiyasını dövrün tələblərinə uyğun olaraq müəyyənləşdirib. Uzaqgörən qərarları ilə Azərbaycan Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir irimiqyaslı layihələri ilə müasir dünyamızda etibarlı tərəfdaşlarından birinə çevrilib.

İşğal altından azad olunan ərazilərimizdə abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir.







Artıq görülən işlərin məntiqi nəticəsi olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış ardıcıl olaraq həyata keçirilir.

### XALQIMIZIN YENİ ŞANLI ZƏFƏR TARİXİ

27 il sonra işğaldan azad olunan Ağdam öz haqqına qovuşdu. Ağdam rayonunun işğaldan azad olunması 2020-ci ilin noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin noyabrın 20-də xalqa etdiyi müraciətdə Ağdam rayonunun işğaldan azad olunmasının tarixi hadisə olduğunu bildirmişdir. "Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız", - deyən Cənab Prezident bildirib ki, biz tarix yazırıq, yeni tarix: "Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfərləri və burada yeni müəssisələrin təməllərinin qoyulması tezliklə Ağdamın müasir bir məkana çevriləcəyindən və sakinlərinin əzəli torpaqlarına qayıdacağından xəbər verir. Səfərlər çərçivəsində dövlətimizin başçısının görülən işlərlə tanışlığı və yeni təməllərin qoyulması, tapşırıq və göstərişlərin verilməsi Ağdamın tezliklə qurulmasının göstəricisidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev sentyabrın 19-da Ağdam rayonuna səfər ediblər. Cənab Prezident Ağdamın Kəngərli kəndində aparılan bərpa işləri ilə tanış olub. Qeyd edək ki, Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 66,2 hektar torpaq sahəsinin ayrılması nəzərdə tutulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev Ağdam rayonunun Eyvazxanbəyli kəndinin təməlqoyma mərasimində iştirak ediblər. Əlbəttə ki, dövlət başçısının Ağdam rayonuna növbəti səfəri bu ərazidə görülən işlərin daha sürətli reallaşmasının təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam Sənaye Parkında müxtəlif təyinatlı ayaqqabıların istehsalı zavodunun, Ağdam Sənaye Parkında Avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodunun, Ağdam Sənaye Parkında Dam örtükləri istehsalı zavodunun açılışlarında iştirak edib.

### İMARƏT KOMPLEKSİ BƏRPADAN SONRA

Prezident İlham Əliyev Ağdama səfəri çərçivəsində şəhərdəki İmarət Kompleksinin bərpadan sonra açılışında iştirak edib. Qeyd edək ki, Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli ev xüsusiyyəti daşıyıb. İşğal altında olmuş ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi, Pənahəli xanın imarəti də işğalçılar tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb.

Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarı olub. Qarabağ xanlarının nəslindən olan digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra qəbiristanlıq da erməni vandalizminə məruz qalıb. İbrahimxəlil xanın türbəsi və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsi ermənilər tərəfindən dağıdılıb. Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq Pənahəli xanın sarayının yerləşdiyi "İmarət" Kompleksinin bərpa edilməsi üçün işlərə başlanılmışdır. Kompleks ümumilikdə 3,3 hektar ərazini əhatə edir.

Ardı səh. 3



# Böyük Qayıdış:

## Ağdamı, Xankəndini və Şuşanı yenidən dirçəldirik!










Əvvəli səh. 2

"İmarət" Kompleksindəki tarixi qəbiristanlıqda mövcud beş türbə qalığı tədqiqat sahəsinə daxil edilib. Türbələrin içi və ətrafı erməni işğalçılarının bu abidələrin daxilində qurduğu donuzçuluq təsərrüfatının tullantılarından və digər qalıqlardan təmizlənib.

Tədqiqat nəticəsində burada çox sayda müsəlman qəbirləri, daş abidələrin fraqmentləri - başdaşıları, sinədaşıları, antik dövr sütun bazası, antropomorf büt aşkarlanıb. Ərazidə xüsusilə kəllə və alt çənə sümükləri, çox sayda insan skeletinin fraqmentləri tapılıb. Onların arasında xan nəslinə aid olan qədim sərdabə tipli qəbirlər də yer alıb. Burada sovet dövründə dəfn edilənlərin qəbirlərinin böyük bir hissəsi vandalizmə məruz qalıb. Erməni işğalçılar tərəfindən məzarların sinədaşı və başdaşıları sındırılıb, bir çoxu müxtəlif məqsədlə istifadə üçün qəbiristanlıq ərazisindən çıxarılıb. Tədqiqatlar nəticəsində müəyyən edilib ki, "İmarət" Kompleksinə aid olan tarixi qəbiristanlığın ərazisi 6 min kvadratmetrdir. Artıq Ağdam şəhərindəki İmarət Kompleksinin bərpadan sonra açılışı oldu.

### AĞDAMIN BAŞ PLANI VƏ SALINAN YAŞAYIŞ MƏHƏLLƏLƏRİ

Ağdamda reallaşan layihələr baş planına uyğun olaraq həyata keçirilir. Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir. Artıq burada 2-ci yaşayış məhəlləsi salınır. Ümumi sahəsi 14 hektara yaxın olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Mənzillərdən 114-nün birotaqlı, 464-nün ikiotaqlı, 536-nın üçotaqlı, 154-nün isə dördotaqlı olması planlaşdırılır.

Məhəllədəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqları salınacaq.

### AĞDAMIN DAXİLİ YOLLARININ TİKİNTİSİ

### 2026-CI İLDƏ BAŞA ÇATDIRILACAQ

Əlbəttə ki, Ağdamda aparılan abadlıq-quruculuq işləri çərçivəsində şəhərin daxili yollarında aparılan işləri də qeyd etməliyik. Ağdam şəhərinin Baş planına əsasən şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edir. Şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. Ağdam şəhərinin daxili yollarının 6 tip en kəsiyinə uyğun tikilməsi nəzərdə tutulub. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq, hərəkət zolaqlarının sayı 2-8 ədəd, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 1,5 metr, piyada zolağının eni isə 4-6 metr təşkil edir. Bu yolların birinci mərhələdə uzunluğu 58,7 kilometr təşkil edən hissəsi müsbət ekspertiza rəyi alıb.

Magistral şəhər yollarının uzunluğu 17,5 kilometrdir. Eni 55-60 metr təşkil edəcək bu yol 6-8 hərəkət zolağından ibarət olacaq. Ümumşəhər əhəmiyyətli yolların uzunluğu 50, yerli əhəmiyyətli yolların ümumi uzunluğu isə 122,2 kilometr təşkil edəcək. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq Ağdam şəhərinin daxili yollarının tikintisi 2026-cı ildə başa çatdırılacaq.

Prezident İlham Əliyev sentyabrın 19-da Xankəndiyə və Şuşaya də səfər edib. Səfər çərçivəsində Xankəndi şəhərində Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbin, 1 nömrəli körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışında iştirak edib. Xankəndi şəhərində "Bulud" hotelində aparılan təmir-bərpa işləri, Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə, şəhərin Zəfər meydanında Konqres Mərkəzinin tikintisi ilə tanış olub. Cənab Prezident İlham Əliyev Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışında, eyni zamanda, Bayraq Meydanının açılışında iştirak edib. Görülən və görüləsi nəzərdə tutulmuş layihələr Ağdamın və Xankəndinin və Şuşanın parlaq və işıqlı gələcəyindən xəbər verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə Bakıda növbəti ağacəkmə aksiyası keçirilib



Sentyabrın 19-da Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Bakı şəhəri, Nərimanov rayonu, Məmməd Araz küçəsi ilə Molla Cümə küçələrinin kəsişməsindəki ərazidə ağacəkmə aksiyası keçirilib. AZƏRTAC xəbər verir ki, "IDEA" könüllülərinin iştirakı ilə baş tutan budəfəki aksiya ümumi sahəsi 7 hektar olan yaşıllıq zonasının bir hissəsində təşkil olunub. Aksiya zamanı 200 ədəd Eldar şamı əkilib və ərazidə müvafiq abadlıq işləri aparılıb. Sözügedən ərazidə ağacların effektiv sulanması və su israfının qarşısının alınması məqsədilə damcılı suvarma sistemindən istifadə nəzərdə tutulub.



Bu gün paytaxtımızda hava təbəqəsi avtomobil nəqliyyatı, istehsal və istehlak fəaliyyəti zamanı yaranan tullantılarla çirklənir, havada olan toz və digər yad maddələr insan sağlamlığına, bütün ekoloji tarazlığa zərər verir. Meşə zolağının salınması və yaşıllaşdırma fəaliyyətləri ekoloji tarazlığın bərpasına və havanın keyfiyyətinin artırılmasına müsbət təsir edir.

"IDEA" İctimai Birliyi bu cür ekoloji aksiyaların mütəmadi olaraq təşkili ilə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə, gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərə qarşı mübarizədə birgə fəaliyyətə səsləyir. Vətəndaşlar qanunsuz ağac kəsilməsi halları ilə rastlaşdıqda şikayət və təkliflərini şəhər və ya mobil telefonlardan 1113 qaynar xətt vasitəsilə IDEA İctimai Birliyinə çatdıra bilərlər.



# Davamlı xarakter alan HƏDSİZLİK




Ölkəmizə qarşı özünün qərəzli mövqeyi ilə seçilən, AŞPA kimi tanıdığımız Avropa Şurası Parlament Assmbleyasının bu dəfə də payız sessiyasında Azərbaycanı hədəfə almaq niyyəti artıq həddi aşmaq deməkdir. Ümumiyyətlə, hansısa bir ölkənin, suveren və müstəqil bir dövlətin öz ərazi bütövlüyünü təmin etməsinə görə qınanılması, hədəfə alınması, sanksiyalar, hədələr, təqiblər barədə düşünülməsi belə hədsizlikdir. Məhz AŞPA deyilən Avropa Şurası Parlament Assmbleyası da ölkəmizin daxili işlərinə qarışaraq, Azərbaycanın müstəqil siyasət yürütməsinə qısqanclıqla yanaşaraq, uğurlarımızı, qələbələrimizi, dövlətimizin söz sahibinə çevrilməsini həzm etməyərək, rəsmi Bakıya qarşı qərəzli mövqedə olmaqla, ədalətsizlik etməklə, reallıqlara deyil, təhrif olunmuş məqamlara, yalanlara yer verməklə hədsizlik etmiş olur. Təəssüf ki, bu hədsizliyə son da qoyulmur və hələ bundan sonra da davam etdirilməsi planlaşdırılır.

### Rəsmi Bakı ölkəmizə qarşı ədalətsizliyə biganə qala bilməz

Bildiyimiz kimi, cari ilin, 2024-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası Azərbaycanın sözügedən qurumdakı nümayəndə heyətinin etimadnaməsini təsdiq etmədi. Daha dəqiq desək, nümayəndə heyətimizin bu qurumdakı fəaliyyətinə, bir növ, birillik "embarqo" tətbiq edilməsi qərarına gəlindi. Təbii ki, rəsmi Bakı da bunu, bu ədalətsizliyi cavabsız qoymadı və buna cavab olaraq, Azərbaycan nümayəndə heyəti də öz növbəsində AŞPA ilə əməkdaşlığı, təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəldi və bununla bağlı bəyanat da verdi. Sözsüz ki, rəsmi Bakı ölkəmizə qarşı ədalətsizliyə biganə qala bilməzdi və qalmadı da. Məlum olduğu kimi, artıq Azərbaycanın da öz şərtləri var və sözügedən qurum nəzərə almalıdır ki, Azərbaycanın şərtləri yerinə yetirilməzsə, Avropa Şurasından çıxmaq prosesinə start veriləcək.

### Ölkəmizin sanksiyalarla hədələnməsi hədsizliyin ekstremum nöqtəsidir

Heç şübhəsiz ki, AŞPA-nın qətnaməsində qeyd olunan məsələlər əslində, bəzi məqamlara aydınlıq gətirilməsi üçün kifayət edir. Məsələn, barəsində qeyd olunan qətnamədə Dağlıq Qarabağla bağlı bir sıra məqamların, xüsusən də Laçın dəhlizindən sərbəst və təhlükəsiz keçidin təmin olunmasının, eləcə də guya yüz mindən çox erməni əhalinin bölgəni tərk etməsi ilə nəticələnən anti-terror tədbirlərindən narahatlığın öz əksini tapması ölkəmizə qarşı qərəzli yanaşmanın təzahürü kimi görülür. Azərbaycanın Qarabağda apardığı anti-terror əməliyyatlarını bu qurumun qətiyyətlə pisləməsi başqa təzahür kimi görülə də bilməzdi və belə bir qənaətdə hər kəs haqlıdır. Rəsmi Bakının sanksiyalarla hədələnməsi isə hədsizliyin ekstremum nöqtəsidir. Azərbaycanın bir suveren, müstəqil dövlət olaraq, öz ərazilərində qanunsuz silahlıların, terrorçuların mövcudluğuna son qoymaq üçün anti-terror tədbirləri həyata keçirməsində qeyri-adi heç nə yoxdur. Belə tədbirlərin keçirilməsi beynəlxalq normalara da zidd deyil. Beynəlxalq qurumlar özləri belə tədbirlərin keçirilməsində maraqlı olmalıdır. BMT-nin məlum dörd qətnaməsini də yaxşı xatırlayırıq və bilirik ki, Ermənistanın qanunsuz silahlı birləşmələrinin Azərbaycan ərazilərini qeyd-şərtsiz tərk etməsi barədə qərarına onillər boyu rəsmi İrəvan tərəfindən məhəl qoyulmadığı üçün Azərbaycan bunu özü öz gücü, qüdrəti ilə etmiş oldu. Bir sözlə, BMT qətnamələrinə uyğun şəkildə addım atıldı. Elə isə AŞPA nədən narazıdır və bəhanəsi məntiqsiz deyilmi? Əlbəttə ki, məntiqsizdir. Əgər narazı qalmışdısa, ilk növbədə narazılığını BMT kimi mötəbər təşkilata bildirərdi. Belə bir narazılığı beynəlxalq təşkilata bildirmədiyi halda, ölkəmizə qarşı qərəzli mövqe ilə çıxış edirsə, deməli, hədsizlik edir.

### Azərbaycanın Xarici İşlər Nazirliyinin arqumentli, tutarlı cavab verməsi tamamilə məntiqidir və normalar çərçivəsindədir

Əvvəla sual olunur ki, nəyə görə Laçın dəhlizindən sərbəst və maneəsiz keçid təmin olunmalıdır və hansı əsasa görə? Hayların maneəsiz şəkildə silah-sursat daşımaları və yenə də erməni separatçılarının, terrorçularının ərazilərimizdə qanunsuz olaraq yerləşdirilməsi üçünmü? Ona görə ki, separatçılar sərbəst şəkildə yenə də Azərbaycan ərazilərində yerləşsinlər, ərazilərimizə silah daşısınlar və torpaqlarımızı minalamağa da davam etsinlər? Bu qədər absurd yanaşma, bu qədər ədalətsiz mövqe, bu qədər haqsızlıq olmaz axı. Yəni, ermənilərin Laçın dəhlizində yoxlanması nəyə görə erməniləri və xüsusən də hansısa beynəlxalq qurumu narahat etməlidir? Əgər hansısa erməni dığası qanunsuz şəkildə ərazilərimizə daxil olmursa, qanunla qadağan olunmuş nə isə daşımırsa, nəyə görə keçiddə yoxlanılmaqdan narahatdır? Bəs həmin o ermənin yoxlanılmasından beynəlxalq quruma toxunan nədir ki, bunu qabardır? Rəsmi Bakının sanksiyalarla hədələnməsi hansı məntiqə və hansı normalara sığışır? AŞPA-nın reallığı təhrif edən, ədalətsiz, ermənipərəst mövqeyinin göstəricisi olan həmin qətnamələri hədsizlik deyilsə, bəs başqa nədir? Sözsüz ki, başqa heç nə deyil və Azərbaycanın Xarici İşlər Nazirliyinin arqumentli, tutarlı cavab verməsi tamamilə məntiqidir və normalar çərçivəsindədir.

### Ədalətsizliyin biri digərini əvəz etdi və davamlı xarakter aldı

Çox yaxşı bilirik ki, 44 günlük Vətən müharibəsindən sonra Avropa İttifaqı iki ölkə, yəni Azərbaycan və Ermənistan arasında danışıqlar prosesində vasitəçilik rolunu oynamaq imkanı əldə etsə də şuranın prezidenti Şarl Mişelin Qranada bəyanatını imzalaması səbəbindən qurumun vasitəçilik missiyası uğursuzluqla nəticələndi. Eyni zamanda, Avropa İttifaqının əsas qurumu sayılan Avropa Parlamentinin də açıq-aşkar şəkildə anti-Azərbaycan mövqeyi tutması da diqqətdən yayınmadı və heç təsirsiz də ötüşmədi. Beləki, Avropa Parlamenti kimi AŞPA da eyni şəkildə ölkəmiz əleyhinə mövqe sərgilədi və nəticəsi də mövcud vəziyyətin yaranmasına gətirib çıxardı, Azərbaycanın tamhüquqlu üzvü olduğu AŞPA-da nümayəndə heyətimizin təmsilçiliyi donduruldu. Yəni, ədalətsizliyin biri digərini əvəz etdi və bu, davamlı xarakter aldı.Əlbəttə ki, almaniyalı deputat Frank Şvabenin Azərbaycana qarşı qərəzli münasibətini və yanaşmasını da unutmamışıq. Bilirik ki, Şvabenin Azərbaycana qarşı, özü də məqsədyönlü şəkildə təşkil etdiyi böhtan kampaniyası "öz işini gördü" və məlum hadisələr də bunun davamı olaraq, bir-birini əvəz etdi. Milli Məclislə AŞPA arasındakı münasibətlərdə böhran yarandı, qurumun qərəzli yanaşması fonunda Azərbaycanın nümayəndə heyəti iştirakını bir il müddətinə dondurdu. Məhz AŞPA-nın məlum qətnaməsindən sonra Azərbaycanın nümayəndə heyəti öz qərarı ilə səlahiyyətlərini dayandırdı. Deməli, bir ermənipərəst deputatın, Frank Şvabenin qərəzi katalizator rolunu oynadı və haqsızlığa yol açılmaqla, ölkəmizə qarşı ədalətsizlik davamlı oldu.

### AŞPA boyda bir beynəlxalq təşkilatın dərdi-səri yoxdur ki, yenə də Azərbaycanı müzakirə etmək niyyətinə düşür?

AŞPA üzvü olan bir sıra ölkələrin milli nümayəndə heyətləri münasibətlərin normallaşdırılması və Azərbaycan nümayəndə heyətinin qurumdakı fəaliyyətinə qayıtması məqsədilə bir neçə ay ərzində quruma müraciət etdilər, amma bunun da nəticəsi olmadı. Daha dəqiq desək, həmin müraciətlərə məhəl belə qoyulmadı. Sözsüz ki, belə məhəl qoymamaq özü də haqlı olaraq, cavabsız da qalmadı. Bütün qərəzli yanaşmalara cavab olaraq, rəsmi Bakı öz növbəsində, növbədənkənar parlament seçkilərini müşahidə etmək üçün AŞPA-nı çağırmadı. Ümumiyyətlə, Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin dayandırılmasına səs verən avoparlamentarilərin ölkəyə girişinə qadağa belə qoyuldu. Sözsüz ki, bu adekvat addım yerli-yerində və məntiqi addım sayılır. Çünki ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyinə görə Azərbaycana qarşı sanksiyalar tətbiq edən, bəyanatlar verən bir təşkilatın nümayəndələrini ölkəyə dəvət etmək və onlara seçkiləri izləmək imkanı vermək qətiyyən lazım da deyildi. Lakin indi bunu bəhanə edən avoparlamentarilər yenə də ölkəmizlə bağlı müzakirələri gündəliyə çıxarmaq niyyətindədirlər. Məgər AŞPA boyda bir beynəlxalq qurumun, təşkilatın dərdi-səri yoxdur ki, yenə də Azərbaycanı müzakirə etmək niyyətinə düşür? "Qoca qitə"nin yeni bir dənə də problemi, qayğısı, dərdi yoxdur ki, avroparlamentarilər yenə də rəsmi Bakı ilə bağlı müzakirələr etmək istəyirlər? Niyə Fransanı müzakirə etmək yadlarına da düşmür? Axı kalonial siyasət yürüdən Fransadır, Azərbaycan deyil.

Azərbaycan öz ərazilərini işğaldan azad etdiyi halda, qanunsuz silahlılardan ərazilərini təmizləməklə, öz torpaqlarında terrorçuluğun, separatçılığın kökünü kəsdiyi halda, Fransa çox dəhşətli bəşəri cinayətlər edib və hələ də özünün kalonial siyasətini davam etdirmək niyyətindədir. Bir milyondan çox insanın qətlini törədən Azərbaycan yox, Fransa olub. Niyə bu boyda qətliyam yox, erməni əsillilərin öz xoşları ilə, öz avtomobilləri ilə, özü də maneəsiz və qorxusuz, təhdidsiz şəkildə ərazilərimizi tərk etmələri avroparlamentarilərin, AŞPA kimi bir qurumun gözünə girir? Bir milyondan çox insanın qətlə yetirilməsi, soyqırım törədilməsi yox, 15-20 min erməninin könüllü şəkildə köç edib Ermənistana getmələri bəhanə edilərək Azərbaycanın müzakirə olunması planlaşdırılırsa, payız sessiyasının gündəliyinə də salınırsa, bu elə hədsizliyin davamlı şəkildə, davamlı xarakter alması deməkdir. Bəlkə Şvabe kimi digərləri də müqaisə edə bilmir? Yoxsa başa düşməkdə, anlamaqda, qanmaqda çətinlik çəkirlər ki, öz torpaqlarında təhlükəsizliyi, stabilliyi, sülhü, əmin-amanlığı təmin etmək üçün qanunsuz silahlılardan ərazilərini təmizləyən, terrorçuluğa, separatçılığa son qoyan ölkə deyil, başqa ölkələrin ərazilərində, başqa xalqlara qarşı vəhşicəsinə soyqırım siyasəti yürüdən ölkə müzakirə edilməlidir... Başa düşürlər, qanırlar, amma özlərini qanmazlığa qoyurlar və Azərbaycana qarşı yersiz, əsassız, arqumentsiz, yanlış iddialarla çıxış edirlər. Deməli, davamlı olaraq, hədsizlik etməkdədirlər və bundan sonra da belə etməyi planlaşdırırlar.

### Ədalətsizlik şousunu davamlı şəkildə göstərənlər hədsizlik etdiklərinin hələ də fərqində deyillərmi?

Heç şübhəsiz ki, AŞPA-nın belə qərəzli mövqeyi, uyğunsuz davranışları misalında ədalətsiz heç bir yanaşma rəsmi Bakı tərəfindən cavabsız qala bilməz. Azərbaycan ərazi bütövlüyü və ədalətin bərpası mövzusuna kənardan hansısa bir müdaxiləyə heç zaman imkan verməz. Əgər ərazi bütövlüyünün, suverenliyinin, ilk növbədə də ədalətin bərpasına görə Azərbaycan Avropa Şurasından çıxmalı olacaqsa, elə çıxmasi daha məsləhətlidir. Çünki belə bir qeyri-normal, qərəzli, hətta ədalətsiz bir qurumda olmaq ölkəmizə heç lazım da deyil. Qoy elə avroparlamentarilər də bilsinlər ki, Azərbaycan hadisələrin bu cür neqativ inkişafına artıq hazırlaşıb və rəsmi Bakı növbəti anti-Azərbaycan addımları gözləmədən belə Avropa Şurasından çıxmaq qərarını verə bilər.AŞPA özünün ədalətsiz qətnaməsinin ardınca indi nə etmək qərarındadır? Avroparlamentarilər ermənilərin xoşuna gəlmək üçün daha hansı şəkildə hədsizlik etmək fikrindədirlər? Nə qədər davam etdirmək istəyirlər bu ədalətsiz yanaşmanı? Ədalətsizlik şousunu davamlı şəkildə göstərənlər hədsizlik etdiklərinin hələ də fərqində deyillərmi? Fərqində deyillərmi ki, onlar tərəfindən anti-Azərbaycan yanaşma artıq davamlı xarakter alıb? Heçmi dərk edə bilmirlər ki, Avropa üçün Ermənistan yox, Azərbaycan daha əhəmiyyətli, daha vacib ölkədir? Görəsən bu reallığı görməyənlər, yaxud da dərk etməyənlər üçün olması faktını AŞPA-da təmsil olunan deputatların böyük əksəriyyəti qəbul edirmi?

***İnam Hacıyev***

# “Əsrin müqaviləsi” dövlət müstəqilliyinin dünəni, bu günü və sabahıdır

***Müstəqilliyini yenicə əldə etmiş Azərbaycanda Ümummilli Lider, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin möhkəm dövlətçilik əzmi, qətiyyətli və ardıcıl siyasəti nəticəsində reallaşan və 1994-cü il sentyabrın 20-də imzalanan neft sazişi xalqın qurtuluş yolu oldu. Müstəqil Azərbaycan Respublikası ilə dünyanın tanınmış neft şirkətləri arasında imzalanmış müqavilə məhz öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə ”Əsrin müqaviləsi” adını alıb.***

Xalqımızın və dövlətimizin taleyində mühüm rol oynayan ”Əsrin müqaviləsi”nin imzalanmasından 30 il ötür. 30 il əvvəli, 1994-cü il 20 sentyabrını olduğu kimi xatırlayırıq. Həmin gün- sentyabrın 20-də Bakıda Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın 11 aparıcı neft şirkəti arasında ”Azəri”,” Çıraq” və ”Günəşli” yataqlarının birgə işlənilməsi və hasilatın pay bölgüsü ilə bağlı ”Əsrin müqaviləsi” imzalandı. Bunun ardınca sonrakı illərdə dünyanın 19 ölkəsini təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalanmışdır. Avrasiyanın yeni geoiqtisadi xəritəsini müəyyənləşdirən bu hadisə həm də yenicə müstəqillik əldə etmiş Azərbaycanın gələcək inkişafının və dünya birliyi ilə tərəfdaşlığının ən həlledici amilinə çevrildi.







Dövlət müstəqilliyinin təməlindən bu günədək ötən zaman kəsiyinə nəzər salarkən, böyük qürurla söyləmək olar ki, ”Əsrin müqaviləsi” bu xalqın qurtuluşu, xilası oldu.

## Neft Azərbaycan xalqının milli sərvətidir

Bu ifadəni dəfələrlə Ümummilli Lider Heydər Əliyevin çıxışlarında eşidirdik. Bunu hətta 1994-cü ilin 20 sentyabrında Onun ”Gülüstan” sarayında dünyanın aparıcı neft şirkətlərinin rəhbərləri qarşısında etdiyi nitqində də bir daha dinlədik: Neft Azərbaycan Respublikasının və Azərbaycan xalqının ən böyük milli sərvətidir. Azərbaycan qədim dövrlərdən neft diyarıdır, neft və qaz kimi təbii sərvətlərə malikdir. Buna görə də Azərbaycanı Odlar diyarı adlandırırlar.

”Əsrin müqaviləsi” imzalanan dövrdə ölkəni xaos vəziyyətinə salan, iqtisadiyyatı çökdürən ünsürlər bu müqavilənin heç də yaxşı nəticə verməyəcəyini, xalqın sərvətinin əlindən çıxacağını yazır, insanların şüuruna təsir etməyə çalışırdılar.

Yeni bir ictimai-iqtisadi formasiyaya qədəm qoyan, müstəqilliyini yenicə əldə edən, torpaqları işğal olunan bir ölkəni məhz onun milli sərvəti ilə xilas etmək olardı. Lakin bütün bunlar xarici ölkələrin neft şirkətlərini ciddi narahat etdiyindən, onlar Azərbaycan neft sənayesinə sərmayə qoymaqdan çəkinirdilər.

Bu məsuliyyətli işi isə Ulu Öndər Heydər Əliyev üzərinə götürmüşdü. Beləliklə də xalq ona inanıb hakimiyyətə gətirdiyi kimi, bu missiyanın da xalqın xeyrinə həyata keçiriləcəyinə inanırdı. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə vətəndaş qarşıdurmasına son qoyulması, ictimai-siyasi sabitliyin bərqərar olması, qonşu ölkələrlə kəskin münasibətlərin qismən yumşaldılması, xarici sərmayələrə ciddi dövlət təminatının verilməsi və sair bu inamı formalaşdıran amil idi.

Heydər Əliyev nəinki bu dövləti qoruyub saxlamağa və dirçəltməyə nail oldu, o, həm də dünya ictimaiyyətini yeniləşmiş Azərbaycanla hərtərəfli əməkdaşlığın perspektivli olduğuna inandıra bildi. Onun tapşırığı ilə xarici neft şirkətlərini Azərbaycanın neft sənayesinə birgə işə cəlb etmək üçün müxtəlif səviyyələrdə danışıqlar aparılmağa başlandı. Belə vacib görüşlərdən birincisi 1993-cü il avqust ayının 13-də dünyanın aparıcı neft şirkətlərinin nümayəndələri ilə Bakı şəhərində keçirilmişdir.

Həmin görüşdə Ümummilli Liderimizin tarixi çıxışı bu gün də olduğu kimi xatırlanır: Bugünkü toplantı müstəqil Azərbaycan Respublikasının neft yataqlarının bundan sonra istifadə olunması problemləri ilə əlaqədardır. Bildiyiniz kimi, Azərbaycan qədim neft diyarıdır və Bakıda neft çıxarılmasına hələ ötən əsrdən başlanmışdır. Tarixə nəzər salsaq, böyük iftixar hissi ilə qeyd edə bilərik ki, Azərbaycan dünyada ilk dəfə neft hasil edən və dünyanın bir çox ölkələrinə neft məhsulları göndərən bir ölkə olmuşdur. İcazə verin, qısa da olsa, neft sənayesinin inkişaf mərhələləri haqqında bir neçə kəlmə söyləyim.

Azərbaycanda neft çıxarılmasına və emal olunmasına başlanan kimi Bakı dünyanın inkişaf etmiş ölkələrinin saysız-hesabsız neft şirkətlərinin diqqətini cəlb etmişdir. Məlumdur ki, Azərbaycanda neft çıxarılması, onun emalı ilk dövrdən həm Azərbaycanın iş adamlarının, həm də xarici şirkətlərin fəaliyyəti ilə bağlı olmuşdur. Bu dövrdə Bakı dünyada bir neft məkanı kimi şöhrət tapmışdı. Sonrakı dövrü götürsək, 1920-ci ildən sonra Azərbaycan nefti keçmiş sovetlər ölkəsinin inkişafında müstəsna rol oynamışdır. O dövrün nailiyyətləri də, çatışmazlıqları da sizin hamınıza yaxşı məlumdur. Biz indi Azərbaycanın neft sərvətlərindən istifadə olunmasının, necə deyərlər, üçüncü mərhələsinə keçmişik. Əgər 1920-ci ilə qədərki dövrə nəzər salsaq, görərik ki, Azərbaycan nefti xarici ölkələrin iri şirkətləri tərəfindən istismar olunaraq daşınıb və xalq neftdən çox az mənfəət götürüb.

Əgər son 70 ildəki dövr haqqında danışsaq, yenə də fikirlər müxtəlifdir. Azərbaycanın neft sərvətləri bütün Sovet İttifaqını təmin edir və eyni zamanda, Azərbaycan Respublikasına, Azərbaycan xalqına böyük mənfəət gətirirdi. Burada həqiqət var və mənə elə gəlir ki, bunu inkar etməyə və bu barədə əsassız fikirlər söyləməyə lüzum yoxdur. Tarix hər şeyi öz yerinə qoyacaqdır. Ancaq məlumdur ki, bu dövrdə Azərbaycan keçmiş Sovet İttifaqında, bütün dünyada neft akademiyası kimi məşhur idi, Azərbaycanda dünya şöhrətli neftçilər, istehsalatçılar, neft ustaları, neft və geologiya sahəsində çalışan alimlər yetişmişlər. Onlar keçmiş Sovet İttifaqının digər regionlarında da fəaliyyət göstərərək neft yataqlarının kəşfiyyatında, istismarında və hasilatının təşkilində mühüm rol oynamışlar. Biz həmin illərdə daim böyük iftixar hissi ilə qeyd etmişik ki, Azərbaycanın neftçiləri - həm alimləri, həm də neft sənayesində çalışanlar böyük sovetlər ölkəsinin hər yerində fəaliyyət göstəriblər və öz təcrübələrini, bilik və bacarıqlarını yeni-yeni neft yataqlarının aşkara çıxarılmasına sərf ediblər və bununla da, Azərbaycan neftçilərinin şan-şöhrətini aləmə yayıblar.

Bütün dünyaya məlumdur ki, ilk dəfə dənizdə qara qızıl çıxarılması Azərbaycan neftçilərinin fəaliyyəti nəticəsində həyata keçmişdir. 1949-cu ildə Neft daşlarında ilk quyunun fontanından sonra dənizdə neft çıxarılması təcrübəsindən bütün dünya istifadə etmişdir. Bu sahədə Azərbaycan neftçilərinin xarici ölkələrdə fəaliyyəti tarixdən heç vaxt silinməyəcəkdir. Sirr deyildir ki, Sovet İttifaqı 1920-1940-cı illərdə yeni bir dövlət kimi öz sənayesini məhz Azərbaycan, Bakı neftinin sayəsində inkişaf etdirə bilib. İkinci dünya müharibəsində Sovet İttifaqının döyüş qüdrətini təmin etmək üçün neft və neft məhsulları strateji rol oynayırdı və o vaxt ölkənin bu məhsullara olan ehtiyacının 75 faizdən çoxunu Bakı verirdi. Bütün bunlar tarixi həqiqətdir. Ancaq illər ötdükcə tarixi daha düzgün anlayır, ona daha real qiymət veririk. Bir daha təkrar edirəm, əgər 1920-ci ilə qədərki dövrü biz xarici ölkələrin Azərbaycan neftini istismar etdiyi bir dövr kimi qəbul etmişiksə, əgər son 70 illik dövrü yaxın illərin mətbuatında belə qələmə verməyə çalışıblar ki, guya bu dövrdə Azərbaycan nefti vəhşicəsinə talan olunub, Azərbaycan xalqına, dövlətinə heç nə çatmayıb, indi biz yeni bir mərhələdəyik. Bu tarixi dövrlərə düzgün qiymət verərək lazımi nəticə çıxarmalı, ibrət dərsi alaraq işi düzgün təşkil etməliyik.

*Ardı Səh. 6*

Əvvəli səh. 5

# "Əsrin müqaviləsi" dövlət müstəqilliyinin dünəni, bu günü və sabahıdır

## Xarici şirkətlər anladılar ki...

Yuxarıda da vurğuladığımız kimi, bir vaxtlar bizimlə əməkdaşlıq etməyə şübhə ilə yanaşan xarici neft şirkətləri bir neçə il sonra artıq bu fikirdə deyildilər. Bu barədə "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə dövlətimizin başçısı İlham Əliyev deyirdi: "Əsrin kontraktı"nın imzalanmasından sonra xarici şirkətlər anladılar ki, Azərbaycana sərmayə qoymaq olar və sərmayə qoymaq lazımdır. Yaxşı xatırlayıram, bir çox xarici şirkət Azərbaycana üz tutub, təkliflərini irəli sürüb və bizimlə əməkdaşlıq etmək haqqında öz niyyətini ifadə etmişdir. Beləliklə, "Əsrin kontraktı"ndan sonra onlarla kontrakt, 40-a yaxın pay bölgüsü sazişi imzalandı. Düzdür, onların bir hissəsinə xitam verildi. Çünki orada kəşfiyyat işlərində lazımi həcmdə neft-qaz resursları tapılmadı. Ancaq digər layihələr bu gün qüvvədədir və bizim qüdrətimizi daha da artırır. Xüsusilə, "Şahdəniz" qaz-kondensat yatağının işlənilməsini qeyd etmək istərdim. "Şahdəniz" üzrə kontrakt "Əsrin kontraktı"ndan iki il sonra - 1996-cı ildə imzalandı. O vaxt dünya enerji aləmində qaz yataqları o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Bu gün təbii qaz enerji təhlükəsizliyi üçün həlledici məsələdir. Ancaq o vaxt belə deyildi. Ona görə "Şahdəniz" üzrə kontraktın imzalanması da tarixi hadisədir. Bu gün "Şahdəniz" Cənub Qaz Dəhlizinin əsas resurs bazasıdır. "Şahdəniz" qaz-kondensat yatağı dünyanın ən böyük yataqlarından biridir. "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları eyni əhəmiyyətə malikdir.







Ondan sonra neft-qaz kəmərləri inşa edilməyə başlanmışdır. Bakı-Novorossiysk kəməri yenidən quruldu. Bakı-Supsa kəməri 1999-cu ildə işə salındı. Bakı-Tbilisi-Ceyhan, - hansı ki, Ulu Öndər Heydər Əliyev özü şəxsən bu kəmərin təməlini qoymuşdu, - 2006-cı ildə biz tərəfdən uğurla başa çatdırıldı. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi və Azərbaycan öz təbii qazını ixrac etməyə başladı. 2012-ci ildə Azərbaycan və Türkiyə arasında TANAP qaz kəməri üzrə saziş imzalanmışdır. "Şahdəniz" yatağının tam miqyasda işlənilməsi üçün bu hadisənin xüsusi yeri vardır. Keçən il biz böyük təntənə ilə həm TANAP-ı, həm Cənub Qaz Dəhlizini rəsmi şəkildə açdıq və bu gün TANAP uğurla fəaliyyət göstərir.

## Neft kapitalı insan kapitalına çevrildi

Müasir Azərbaycanın nümunəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu və 30 il bundan əvvəl imzalanan "Əsrin müqaviləsi" ilə Azərbaycanda yeni neft strategiyası başlanmış və ötən müddətdə uğurla həyata keçirilmişdir. Bu strategiya ölkəmizin müstəqil gələcəyini, dünya dövlətləri ilə strateji tərəfdaşlığını, iqtisadi inkişafının uğurlu nəticələrini, beynəlxalq və regional aləmdəki aparıcı rolunu təmin etmiş və Azərbaycanın dünyanın qabaqcıl ölkələri sırasına çıxmasına təkan vermişdir.

"Əsrin müqaviləsi"ndən ötən dövrdə Azərbaycan özünün iqtisadi müstəqilliyini tam təmin edən ölkəyə çevrilmiş, dövlətin maliyyə imkanları əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Bu gün 2003-cü illə müqayisədə ölkədə ümumi daxili məhsul istehsalı 3,6 dəfə artaraq 123 milyard manata çatıb. 2003-cü ildə 1,6 milyard ABŞ dolları təşkil edən strateji valyuta ehtiyatları 43 dəfə artaraq 68,5 milyard dollara yüksəlib. Ölkə iqtisadiyyatının müxtəlif sahələrinə 318,9 milyard dollar investisiya cəlb edilib. Xarici ticarət dövriyyəsi 10 dəfəyə yaxın artıb.

Dövlət büdcəsi 30 dəfəyədək çoxalıb, büdcənin sosial rifahla yanaşı, iqtisadi fəallığın da dəstəklənməsində rolu yüksəlib. Ötən dövrdə sosial müdafiə və sosial təminat xərcləri 20 dəfədən çox artıb, orta aylıq nominal əməkhaqqı isə 12 dəfə yüksəlib.

Ölkəmizin 20 faizdən artıq torpaqlarının Ermənistan tərəfindən 30 il müddətində işğal altında saxlandığını, minlərlə qaçqın və məcburi köçkünümüzün olduğunu da nəzər alsaq, neft, bəli, xalqımızın xilası oldu. Belə ki, ötən müddət ərzində qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün ümumilikdə 8,7 milyard manat, o cümlədən dövlət büdcəsindən 5,6 milyard manat vəsait ayrılıb.

Təbii ki "Əsrin müqaviləsi" ilə artan iqtisadi gücümüz torpaqlarımızın düşmən işğalından azad edilməsində də əvəzsiz rol oynayıb. Milli ordumuzun dirçəldilməsinə dövlət büdcəsindən ayrılan xərc illər sonra bəhrəsini verdi. Belə ki, ordumuz təkmilləşdirildi, təchizatı gücləndirildi və nəticə etibarilə torpaqlarımız azad edildi. Ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olundu. Və bu gün soydaşlarımızın ata-baba yurduna Böyük Qayıdışı da ölkəmizin iqtisadi imkanları və bu imkanların təməl daşı olan milli sərvətimiz- neft hesabına həyata keçirilir.

Bir dövlət üçün əsas məsələlərdən birinə də nəzər salmaq yerinə düşər. Belə ki, dövlətlərin gələcək inkişaf perspektivlərini yalnız onların malik olduğu zəngin təbii sərvətlər deyil, həm də ölkənin elmi-mədəni, intellektual potensialı və eyni zamanda, bütün bunlardan yüksəkdə dayanan insan kapitalı müəyyənləşdirir. Ona görə də Azərbaycan özünün inkişafında yalnız təbii sərvətlərin gətirdiyi gəlirlərə deyil, həm də neft kapitalının insan kapitalına çevrilməsinə böyük əhəmiyyət verir, bu istiqamətdə məqsədyönlü dövlət siyasəti aparılır.

## 2050-ci ilədək...

Azərbaycanın neft strategiyasının müəllifi Ulu Öndər Heydər Əliyev hələ 1997-ci il noyabrın 12-də "Çıraq" platformasında ilkin neftin çıxarılmasına həsr olunmuş mərasimdə demişdir: "Bizim imzaladığımız müqavilələrin hamısı təxminən 30 il müddətinə bağlanıbdır. Ancaq mən güman edirəm ki, bu müqavilələr 30 il yox, ondan da çox illər işləyəcəkdir. Mən hesab edirəm ki, Azərbaycan Respublikasının dünyanın böyük neft şirkətləri ilə imzaladığı müqavilələr XXI əsrdə həm Azərbaycan üçün, həm də Azərbaycanla müştərək iş görən şirkətlər, ölkələr üçün çox əhəmiyyətli sənədlərdir".

Dövlət xadiminin bütün sahələrdə olduğu kimi, neft strategiyasında da uzaqgörənliyinin bir daha şahidi olduq. 2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması mərasiminin keçirilməsi və "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənilməsinin 2050-ci ilədək uzadılması bunu sübut edən amildir.

Deməli, ötən 30 il ərzində neft strategiyasının uğurla həyata keçirilməsinin nəticəsidir ki, onun vaxtı daha da uzadılır. Bu, həm də Heydər Əliyev siyasətinin uğurlu davamı deməkdir.

## Neft, qaz tükənən, lakin intellektual potensial, bilik, savad, səriştə, təcrübə dəyişməz sərvətdir

"Əsrin müqaviləsi"nin imzalandığı gün həm də ölkəmizdə Neftçilər Günüdür. Azərbaycan Prezidentinin 16 avqust 2001-ci il tarixli Fərmanı ilə 20 sentyabrın hər il Azərbaycanda "Neftçilər günü" kimi qeyd edilməsi rəsmiləşdirilib.

Neftçi kadrlarla bağlı cənab İlham Əliyevin dəyərli fikirlərini xatırlayaq: Bir məsələni də qeyd etmək istəyirəm. "Əsrin kontraktı"nın ölkəmiz üçün, xalqımız üçün çoxşaxəli faydası var. Ancaq onlardan biri də kadr hazırlığıdır. Xatırlayıram, 1994-cü ildə kontraktın üzərində iş aparılarkən xüsusi qeyd edirdik ki, biz istəyirik kontraktda Azərbaycan vətəndaşlarının işə cəlb olunması məsələsi göstərilsin. Biz istəyirdik ki, bu, bir öhdəlik kimi konsorsiumun şirkətləri üzərinə qoyulsun ki, Azərbaycan mütəxəssisləri tədricən bütün əsas vəzifələrdə işləsinlər və belə də oldu. Əlbəttə ki, birinci illərdə xarici mütəxəssislər çoxluq təşkil edirdi. Ancaq xarici şirkətlər və Azərbaycan tərəfindən aparılmış təlim kursları çox güclü kadr potensialı yaratdı. Mənə verilən məlumata görə, bu gün bu təlimlərdən keçmiş mütəxəssislər BP şirkətinin nəinki Azərbaycanda, bir çox ölkələrdə önəmli layihələrində iştirak edirlər, önəmli vəzifələrdə çalışırlar. Bu gün "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsində çalışanların 90 faizdən çoxu Azərbaycan vətəndaşlarıdır, yəni, bunu biz təmin etdik. Bu, çox böyük sərvətdir. Neft, qaz tükənən sərvətlərdir. İntellektual potensial, bilik, savad, səriştə, təcrübə isə dəyişməz sərvətdir. Bu təlimlərdən keçmiş Azərbaycan vətəndaşları, mütəxəssisləri bu gün çox böyük işlər görürlər, ölkəmizin inkişafına böyük töhfə verirlər.

Beləliklə, bu layihə ilə həm müstəqilliyimizin dünənindən bu günə kimi gələn yol, həm ölkənin iqtisadi göstəriciləri, statistik faktlar, əldə etdiyimiz böyük Zəfər Azərbaycanın suveren dövlət kimi öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafeyini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bütün dünyaya göstərdi. "Əsrin müqaviləsi" bu gün dövlət müstəqilliyimizin mühüm təminatıdır. Odur ki, taleyimizin dəyişməsinə səbəb olan bu müqavilənin daha uzunömürlü olmasını arzulayırıq. Neftçilər Günü münasibətilə gecəli-gündüzlü bu ağır və böyük zəhmət tələb edən işlə məşğul olan hər bir neftçimizi ürəkdən təbrik edirk və onlara can sağlığı, işlərində müvəffəqiyyətlər arzulayırıq.

*Mətanət Məmmədova*

# Özəl, yoxsa dövlət bağçaları: Seçimi necə edək?

***Azərbaycanda 2023-cü il məlumatlarına əsasən, 1700-dən çox dövlət bağçası fəaliyyət göstərir və təxminən 125 min uşaq bu bağçalara qəbul olunub. Özəl bağçaların sayı son illərdə artıb, təxminən 200-dən çox özəl bağça fəaliyyət göstərir. Bəs, uşaqlar üçün özəl, yoxsa dövlət bağçaları daha yaxşıdır? SİA mövzu ilə bağlı ekspertlərin fikirlərini öyrənib.***

**Təhsil eksperti Kamran Əsədov:** "İlk



növbədə qeyd edim ki, hər iki növ bağçanın öz üstünlükləri və çatışmazlıqları var və seçim fərdi ehtiyaclara və maliyyə imkanlarına görə dəyişir. Gəlin bu iki bağça növünü təhlil edək.



## Dövlət bağçaları: Statistik və keyfiyyət baxımından təhlil

**Statistika:**

Azərbaycanda dövlət bağçalarının sayı: Azərbaycanda 2023-cü il məlumatlarına əsasən, 1700-dən çox dövlət bağçası fəaliyyət göstərir və təxminən 125,000 uşaq bu bağçalara qəbul olunub. Lakin bu bağçaların çoxunda doluluq səviyyəsi yüksəkdir, xüsusən də şəhərlərdə.

**Maliyyələşdirmə:** Dövlət bağçaları tamamilə hökumət tərəfindən maliyyələşdirildiyi üçün valideynlər az və ya heç bir ödəniş etmirlər. Bu, əlçatanlıq baxımından böyük bir üstünlükdür, xüsusən də orta gəlirli ailələr üçün.

**Müəllim keyfiyyəti:** Dövlət bağçalarında çalışan müəllimlərin böyük əksəriyyəti pedaqoji təhsilli və təcrübəlidirlər. Lakin bəzən dövlət bağçalarında təlim prosesinin müasir metodlara cavab verməməsi, tədris vasitələrinin kifayət qədər modern olmaması kimi problemlər ortaya çıxır.

**İnfrastruktur və şərait:** Bir çox dövlət bağçası köhnə binalarda yerləşir, təmirə ehtiyac duyur, həmçinin uşaqlar üçün oyun və əyləncə məkanları məhduddur. Bəzi rayonlarda infrastruktura diqqət artırılsa da, hələ də böyük fərqlər mövcuddur.

**Keyfiyyət:** Dövlət bağçalarında təhsil, oyun və sosial bacarıqların inkişafına fokuslanır, lakin uşaq başına düşən resursların məhdudluğu tədrisin keyfiyyətini aşağı sala bilir.

Müəllimlərin böyük qismi təcrübəli olsa da, müəllim-şagird nisbəti çox yüksəkdir və bu da fərdi diqqətin azalmasına səbəb ola bilər.

## Özəl bağçalar: Statistik və keyfiyyət baxımından təhlil

**Statistika:**

**Özəl bağçaların sayı:** Azərbaycanda özəl bağçaların sayı son illərdə artıb, təxminən 200-dən çox özəl bağça fəaliyyət göstərir. Lakin onların əksəriyyəti paytaxtda cəmlənib.

**Maliyyələşdirmə:** Özəl bağçalarda təhsil haqları yüksəkdir və ailənin maliyyə imkanlarından asılı olaraq fərqlənir. Bakı və Gəncə kimi şəhərlərdə özəl bağçalar üçün aylıq ödənişlər təxminən 200-1500 AZN arasında dəyişə bilər.

**Müəllim keyfiyyəti:** Özəl bağçalarda müəllimlərin əksəriyyəti xüsusi təlimlər keçib və müasir tədris metodlarını mənimsəyib. Uşaq başına düşən müəllim sayı dövlət bağçalarına nisbətən daha yaxşıdır və bu da fərdi təhsilə imkan yaradır.

**İnfrastruktur və şərait:** Özəl bağçaların çoxu müasir infrastruktur və rahat təhsil şəraiti ilə təmin olunur. Həmçinin, əyləncə və oyun avadanlıqları, idman və incəsənət dərnəkləri geniş miqyasda təklif edilir.

**Keyfiyyət:** Özəl bağçalarda təhsil proqramları daha çox şaxələnmişdir. Çox sayda özəl bağça beynəlxalq tədris metodlarını (Montessori, Reggio Emilia və s.) tətbiq edir və bu metodlar uşaqların özünənamının inkişafına, yaradıcılığın stimullaşdırılmasına yönəlib. Lakin bəzi özəl bağçalar sadəcə kommersiya məqsədi daşıdığı üçün keyfiyyət problemləri də yaşana bilir.

## Dünya təcrübəsi ilə müqayisə

**Dövlət bağçaları:**

Skandinaviya: İsveç və Finlandiya kimi ölkələrdə dövlət bağçaları yüksək keyfiyyəti və yaxşı maliyyələşdirilməsi ilə seçilir. Uşaqların sosial bacarıqlarının inkişafı və oyun əsaslı tədris proqramları prioritetdir. Müəllim-şagird nisbəti çox aşağıdır və resurslar bol şəkildə təmin edilir.

**ABŞ:** Amerika Birləşmiş Ştatlarında dövlət bağçalarının keyfiyyəti ştatlara görə dəyişir. Var-dövlət səviyyəsi yüksək olan ərazilərdə dövlət bağçaları yüksək keyfiyyətli olsa da, kasıb bölgələrdə resurs çatışmazlığı mövcuddur.

**Özəl bağçalar:**

**İngiltərə və ABŞ:** Bu ölkələrdə özəl bağçalar çox yayılıb və müxtəlif tədris metodları təklif edir. Lakin özəl bağçalar daha bahalıdır və hər ailə üçün əlçatan deyil. İngiltərədə Montessori məktəbləri geniş yayılıb və uşaqların fərdi təhsilinə diqqət yetirir.

**Sinqapur:** Sinqapurda özəl bağçalar inkişaf etmişdir və ölkənin inkişaf strategiyası çərçivəsində uşaq təhsili üçün çox vacib bir rola malikdir. Burada dövlət və özəl bağçalar arasında böyük fərqlər yoxdur, çünki hər iki növ bağçada yüksək standartlar tətbiq edilir.

## Müqayisəli təhlil və nəticə

Azərbaycanda dövlət və özəl bağçalar arasındakı əsas fərqlər maliyyə, resursların mövcudluğu və tədris keyfiyyətinə əsaslanır. Özəl bağçalar valideynlər üçün daha yaxşı tədris proqramları və müasir infrastruktur təklif etsə də, onların ödənişləri çox yüksəkdir və hər ailə üçün uyğun deyil. Dövlət bağçaları isə əlçatan olsa da, infrastruktur və müəllim-şagird nisbəti baxımından özəl bağçalarla müqayisədə geri qalır.

Dünya təcrübəsinə əsasən, inkişaf etmiş ölkələrdə dövlət bağçaları yüksək səviyyədə təşkil edilir və uşaqlara optimal şərait yaradılır. Azərbaycanda bu təcrübənin tətbiqi üçün dövlət bağçalarının maliyyələşdirilməsini artırmaq, müəllimlərin təlimini müasirləşdirmək və infrastrukturun yenilənməsi vacibdir".



**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Dünyanın inkişaf etmiş bütün ölkələrində həm dövlət, həm də özəl bağçalar fəaliyyət göstərir. İnsanlar büdcələrinə uyğun bağça seçirlər. Kimin imkanı varsa, övladını özəl bağçalara qoyur. Maddi vəsaitə qənaət etmək istəyənlər isə dövlət bağçalarını seçirlər.

Düşünürəm ki, uşaqların sosiallaşması, gələcəkdə cəmiyyətə daha rahat inteqrasiya oluna bilməsi üçün bağçalara getməsi şərtdir. Uşaqların bağçaya getməsi valideynlərin işləməsi, ailə büdcəsinə dəstək olması üçün çox vacibdir.

Təəssüf ki, Azərbaycanda bağçaların sayı uşaqların sayına adekvat deyil. Hazırda uşağı bağçaya qoymaq əməlli-başlı müşkülə çevrilib. Yeni, müasir tipli bağçaların sayını artırmağa ehtiyac var. Çalışmaq lazımdır ki, uşaqlar məktəbdən əvvəl bağçaya getsinlər. Çünki bağçada sosiallaşırlar, təməl bilgilər qazanırlar, şeir, mahnı öyrənirlər. Məndə olan məlumata görə, özəl bağçalarda uşaqlarla bir qədər fərqli proqramla işləyirlər. Düşünürəm ki, bağçanın profilindən asılı olmayaraq, uşaqların milli ruhda böyüməsi prioritet olmalıdır. Bu isə ilk növbədə müəllimlərdən asılıdır. Odur ki, savadlı, bacarıqlı bağça müəllimlərinin hazırlanmasına xüsusi diqqət yetirilməlidir. Bağçalar uşaqların ağlaya-ağlaya deyil, gülə-gülə getdikləri məkanlara çevrilməlidir".

EKSPERT RƏYLƏRİ

***Ayşən Vəli***

# Paşinyan yenə "sağ çıxdı"

*Baş nazir KTMT-ni Ermənistana təhlükə yaratmaqda ittiham edib*



**Antiterror tədbirlərinin ildönümü ərəfəsində İrəvanda keçmiş Qarabağ separatçılarının mitinqi keçirilib. Baş separatçı Samvel Şahramanyan və digərlərinin Müqəddəs Xaç kilsəsində toplaşmasına əsas səbəb Ermənistan hökumətinin Qarabağın itirilməsinə görə separatçıları günahlandırması olub. Əslində isə günahkarın Baş nazir Nikol Paşinyan hakimiyyəti olduğunu deməyə çalışıblar. Həmçinin etiraz mitinqinin keçirilməsinə daha bir hadisə səbəb olub. Dövlət, yaxud hökumət çevrilişinə cəhdə görə saxlanılanların "Ermənistan vətəndaşları və Qarabağdan köçən iki nəfər" şəklində açıqlanması əsəbləri tarıma çəkib. "Qarabağlılar" çevriliş cəhdində onların adının qəsdən vurğulandığını deyirlər.**

Ermənistanın baş naziri Nikol Paşinyan Ümumdünya Erməni Sammitində çıxışı zamanı KTMT-ni (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı) Ermənistana təhdid yaratmaqda ittiham edib, həmçinin Avropa İttifaqına daxil olmaq və Türkiyə ilə diplomatik əlaqələr qurmaq istəyindən danışıb. Eyni zamanda, Respublika Milli Təhlükəsizlik Xidməti dövlət çevrilişi hazırlayan cinayətkar dəstənin aşkarlanması barədə məlumat yayıb. İstintaq Komitəsinin məlumatına görə, yeddi nəfərə qarşı cinayət işi açılsa da, indiyədək yalnız üç nəfər həbs edilib. Qalanları axtarılır. Sui-qəsdçilər arasında Qarabağdan olan ermənilərin də olduğu məlumdur.

Hüquq-mühafizə orqanlarının məlumatına görə, sui-qəsdçilər hərbi hazırlıq bəhanəsi ilə Rusiyaya aparılan bir neçə nəfəri Ermənistana gətiriblər. Respublikanın İstintaq Komitəsi iddia edir ki, yaraqlılar Rusiyada Arbat bazasında təlim keçiblər. Üç ay ərzində onlara 220 min rubl maaş verilib, lakin əvvəlcə təlimçilərin əsl niyyətindən xəbəri olmayıb. Əvvəlcə insanlara bildirilib ki, kurslardan sonra sərhəddə döyüş növbətçiliyini yerinə yetirmək üçün vətənə qayıda biləcəklər. Sirr bəlli olanda isə bəziləri baş nazir Nikol Paşinyanı devirməyə razı olmayıb. Milli Təhlükəsizlik Xidmətinin məlumatına görə, cinayətkar qrupun digər üzvləri onlardan asılı olmayan şəraitə görə cinayəti başa çatdıra bilməyiblər.

Saxlanılanlardan biri "Qara Pantera" hərbi-vətənpərvərlik ictimai təşkilatının sədri Serob Qasparyandır. O, sentyabrın 17-də axşam saatlarında həbs edilib. "Hraparak" qəzetinin məlumatına görə, hüquq-mühafizə orqanları onu bir neçə ay ərzində izləyib. Qasparyan ən azı bundan duyuq düşüb, çünki o, yaxınlarına hakimiyyətin onu həbs etmək üçün səbəb axtardığı barədə xəbərdarlıq edib. Hraparakın sözlərinə görə, təhlükəsizlik qüvvələri təkcə onun evində deyil, Qarabağ uğrunda ikinci müharibədə iştirak etmiş digər şəxslərin də evlərində axtarış aparıblar. Onlar iri çaplı silahlar, sui-qəsd iştirakçılarının siyahıları və pul axtarıblar. Ancaq belə bir şey tapılmayıb. "İttiham mahiyyətcə, Rusiyada hərbi təlimlərə hazırlaşan uşaqlara onların gəlib Ermənistana hakimiyyət dəyişikliyi etməyə hazırlaşdıqlarını söyləməsi ehtimalı və ifadəsinə əsaslanır", - "Hraparak" yazır.

Maraqlıdır ki, bu, dövlət çevrilişinə cəhdlə bağlı ilk xəbər deyil. Məsələn, 2023-cü ilin sentyabrında Milli Təhlükəsizlik Xidməti Paşinyana qarşı sui-qəsd hazırladıqlarını açıqlamışdı. İstintaqın məlumatına görə, cinayətin təşkilatçısı İrəvanın keçmiş meri Albert Bazeyandır (o, 1999-2001-ci illərdə şəhərə rəhbərlik edib). Onunla birlikdə "Səlibçilər" hərbi-vətənpərvərlik təşkilatından daha 7 nəfər saxlanılıb.

Axtarışlar zamanı saxlanılan şəxslərdən odlu silah, döyüş sursatı və zirehli əşyalar aşkar edilib. Eyni zamanda, həmin ilin iyulunda Bazeyan jurnalistlərlə görüşdə bildirib ki, könüllülər, hərbçilər, milislər və ehtiyatda olan hərbçilərdən ibarət birlik yaradılır. O, onlarla birlikdə Azərbaycan qoşunlarını Ermənistan ərazisindən çıxarmaq, həmçinin hökuməti istefaya və parlamenti buraxmağa məcbur etmək niyyətində idi. Bazeyan bundan sonra Ermənistanın keçmiş liderlərindən heç birinin başçılıq etməyəcəyi müvəqqəti hökumət yaratmağa ümid edirdi.

Nəticədə o, 6 ay həbsdə olub və sonra ev dustaqlığına buraxılıb. Sui-qəsdçi olduğu iddia edilən şəxsə qarşı Milli Təhlükəsizlik Xidmətinə cəlb edilmiş Armen Arutyunyanın ifadəsi əsasında cinayət işi açılıb. "Həbs olunandan sonra onunla qarşıdurma təşkil etməyi tələb etdim. Yalnız altı ay sonra müstəntiq bunu təşkil etdi. Arutyunyan məni ictimai-siyasi xadim kimi uzaqdan tanıdığını, lakin fiziki olaraq görüşmədiyini və heç bir münasibətinin olmadığını bildirdi", - keçmiş mer qeyd edib. Bazeyanın sözlərinə görə, istintaqda onu mühakimə etmək üçün kifayət qədər dəlil yoxdur, ona görə də təhlükəsizlik qüvvələri onu başqa cinayətə "bağlamaq" üçün hansısa səhvə yol verəcəyini gözləyir. Eyni zamanda, onun özü də AİHM-ə müraciət etməyi planlaşdırır.





"Hələlik bizdə iddia edilən sui-qəsd haqqında az məlumat var, lakin Rusiyadakı və Qarabağdan olan insanların hücuma məruz qaldığı dərhal aydın olur. Heç kim birbaşa Moskvanı günahlandırmasa belə, pis fikirlər ortaya çıxacaq. Paşinyan bütün bəlalarda ənənəvi olaraq rusları və "Qarabağ erməniləri"ni) günahlandırır. Bu dəstənin başında duran üçüncü tərəf Ermənistanın keçmiş hakimiyyət orqanlarıdır, onlar hər an meydana çıxa bilərlər. Eyni zamanda bir sual cavabsız qalıb: nisbətən az pul və yeddi nəfərlik komanda ilə çevriliş necə baş tuta bilər? Təkcə Ermənistanda 10 mindən çox polis əməkdaşı var", - erməni politoloq Qrant Mikaelyan bildirib.

Bununla belə, o, sui-qəsd reallığını da istisna etməyib. Ekspertin sözlərinə görə, ifşa edilmiş sui-qəsd cəhdləri və ya dövlət çevrilişi ilə bağlı təxminən altı aydan bir müxtəlif xəbərlər çıxır. "Ölkə əhalisinin təxminən üçdə biri Paşinyana nifrət edir. Dostlar arasında onun necə öldürülməsi lazım olduğu barədə söhbətləri asanlıqla eşidə bilərsiniz. Bu cür hisslər o qədər yayılıb ki, buna görə cəzalandırılmırlar. Amma söhbət etmək başqa şeydir və bu istiqamətdə bəzi addımlar, hətta kiçik addımlar atmaq tamam başqadır", - Mikaelyan hesab edir.

Maraqlıdır ki, hüquq-mühafizə orqanları sui-qəsdin üstünü açmaqdan danışarkən, Paşinyan növbəti dəfə KTMT-yə ittihamlarla hücum etmək qərarına gəlib. Onun sözlərinə görə, İrəvan iki il əvvəl təşkilata öz təhlükəsizliyi ilə bağlı iddialarını irəli sürüb, lakin heç bir cavab ala bilməyib. Bu baxımdan Paşinyan hesab edir ki, KTMT Ermənistanın təhlükəsizliyinə, onun gələcək mövcudluğuna, suverenliyinə və dövlətçiliyinə təhdidlər yaradır. Bu, son nəticədə İrəvanla təşkilat arasında son fasiləyə gətirib çıxara bilər.

Hərbi blokun baş katibi İmanqali Tasmaqambetov qiyabi olaraq cavab verib ki, struktur hələ də respublikanı bərabərhüquqlu tərəfdaş hesab edir və bütün məsələlər üzrə dialoqa hazırdır. "Biz qəti şəkildə cənab Paşinyanla razılaşmamalıyıq: Ermənistanın suverenliyinə heç bir təhlükə, heç bir təhlükə KTMT-dən gələ bilməz və gəlmir. Əksinə, bu təşkilat üzv dövlətlərin suverenliyinin keşiyində durur. Biz səbirlə bu mövqeyi Ermənistan rəhbərliyinin diqqətinə çatdıracağıq", - Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

Eyni zamanda, Paşinyan yenidən Ermənistanın Avropa İttifaqına daxil olmasının lehinə danışıb. "Avropa İttifaqına daxil olmaq üçün az-çox real imkanın olduğunu görəndə, bu anı qaçırmayacağıq", - deyə Ermənistan lideri vurğulayıb. Düzdür, Paşinyan oktyabrın 22-dən 24-dək Kazanda keçiriləcək BRİKS sammitinə dəvət alıb və gələcəyinə söz verib. Digər tərəfdən, Paşinyan Rusiya və AİI (Avrasiya İqtisadi Birliyi) ilə münasibətləri kəsmək fikrində olmadığını bildirib. Onun sözlərinə görə, İrəvan heç vaxt belə bir vəzifə ilə üzləşməyib. Əksinə, Ermənistan hakimiyyəti AİI üzvləri ilə ticarət dövriyyəsini artırmağa davam edəcəyinə ümid edir.

Bundan başqa, Ermənistan Türkiyə ilə diplomatik əlaqələr qurmağa və onunla quru sərhədini açmağa ümid edir. Xatırladaq ki, Ankara və İrəvan bu mövzuda danışıqlara 2021-ci ilin sonunda başlayıb, lakin indiyədək heç bir ciddi irəliləyiş əldə olunmayıb. Məsələ ondadır ki, Türkiyə hakimiyyəti Ermənistanın ilk növbədə Azərbaycanla sülh müqaviləsi bağlamasını istəyir. Bu yolda bir çox manelər var, o cümlədən bir-birinə qarşı ərazi iddiaları və məhbusların azad edilməsi ilə bağlı mübahisələr. Paşinyanın danışdığı digər mühüm problem isə yeni atom elektrik stansiyasının tikintisi olub. Onun sözlərinə görə, AES modul olmalıdır, lakin onu konkret kimin tikəcəyi hələ məlum deyil. "Görünür, ABŞ ən çox irəliləyişə nail olub. Lakin bu texnologiya Rusiya, Fransa, Cənubi Koreya tərəfindən hazırlanır və biz tərəfdaşlarla işləyirik", - baş nazir izah edib.

Ola bilsin ki, AES uğrunda mübarizə aparan tərəflər də Paşinyana qulaqburması vermək istəsinlər. Burada hədə-qorxu, hətta sui-qəsd görüntüsü də istisna deyil. Paşinyan isə qorxaqdır, öldürülməyəcəyinə tam əmin deyil. Tərəfdaş dövlətlər də onun təhlükəsizliyindən başqa bütün fəaliyyətlərə razı olduqlarını təkrarlayırlar. Paşinyana isə bu sərf etmir, paşinyansız Ermənistan onun "yol xəritəsi"ndə yoxdur.

**V.VƏLİYEV**

KÜNCDƏN BAXIŞ

# Qloballaşma, yoxsa dəyərsizliyə inteqrasiya?

***Son dövrlərdə cəmiyyətimizdə bəzi qüvvələr tərəfindən milli-mənəvi dəyərlərə qarşı hücumlar artıb. Öz əxlaqını, vicdanını, namusunu, dəyərlərini qoruyan insanlara Söylü demiş belə birtəhər baxırlar. Bu prosesi hansı qüvvə və kim tərəfindən idarə edilir, Şərif demişkən, "subutalni, dokumentalnı" sizə deyə bilmərəm, amma necə və niyə edir bu haqda bəzi mülahizələrim var.***



Avropa, Qərb dəyərləri adı altında bəzi beynəlxalq və yerli mərkəzlər tərəfindən bizə sürətlə və ardıcıl sırınan dəyərlərin mənəvi tərəfləri faciədir. Bu mənəvi deqradasiyanın Qərb cəmiyyətlərini hansı sosial-mənəvi nəticələrə gətirib çıxardığı haqda çoxsaylı faktlarla bağlı elə Qərb tədqiqatçılarının ciddi əsərləri var.

Bəli, etiraf etməliyik ki, qloballaşma prosesində birtərəfli inteqrasiya ciddi problemlərə yol aça bilər. Bəzi dairələr bəzi Qərb ölkələrinin iqtisadi və texniki inkişafını əsas götürüb bizim də onların mənəvi dəyərlərini qəbul etməyimizə çağırırlar. Bunu çox vaxt maddi, texnoloji inkişafla bağlayıb deyirlər ki, görürsünüzmü, Qərb ölkələri mənəvi dəyərləri kənara qoyublar deyə necə inkişaf ediblər.



Lakin bir ağıllı çıxıb onlara tək bir Yaponiyanı, Çini nümunə göstərəndə boğazları quruyur. İndi necə izah etsinlər ki, yaponların, çinlilərin timsalında bir şərq xalqı öz dəyərlərini, mədəniyyətini, dinini, ənənələrini, əxlaqını qoruyaraq da dünyanın ən inkişaf etmiş xalqına çevrilə bilir. Tərslikdən də, Çin və Yaponiya Qərbdə yox, Şərqdə yerləşirlər. Qısası, o arqumentə, necə deyərlər bir quş.

İkinci arqument insan hüquqları adı altında cəmiyyətimizə sırınan dəyərlərdir. Məsələn, qadın hüquqları, uşaq hüquqları, cinsi azlıqların hüquqları və s. Mən başa düşmürəm, bizim cəmiyyətdə qadınlar, uşaqlar, xəstələr kimsə tərəfindən əzilirmi? Psixi xəstələr tərəfindən edilən tək-tük kriminal hərəkətləri nəzərə almasaq, xeyr!

Kişilərin həmişə qadınlara diqqətlə, qayğıyla, fədakarlıqla yanaşdığını görmüşük. Azərbaycan qadını həm evinin, ailəsinin xanımı olub, həm də cəmiyyətə xeyirli ictimai fəaliyyət göstərib. Qadın azadlığı budur, indi kommersiya TV-lərində, internetdə, seriallarda təbliğ olunanlar deyil. Məncə, bir xanımın elmi ixtiralar etməsi üçün onun ictimai yerlərdə yarıçılpaq gəzməsi və ya müxtəlif kişilərlə qeyri-qanuni münasibətlərdə olması tələb olunmur.

Bizim ailə institutumuzda və cəmiyyətimizdə qadının, qızın öz layiqli yeri var. Amerikalı və avropalıya azərbaycanlı kişinin öz anası, xanımı, bacısı, qızı uğrunda düşünmədən canını qurban verməsi bəlkə qəribə gələr, amma bizdə bu, müzakirəsi belə mümkün olmayan avtomatik reaksiya hesab olunur.

Bizdə uşaqlar döyülüb öldürülürmü? Xeyr! Sadəcə valideyn bəzən tərbiyəsi pozulmasın deyə uşağına qulaqburması verir. Əks halda, həmin uşağın axırı hippiyə, emoya, ən yaxşı halda cinayətkara və ya narkomana çevrilər. Uşağını qorumaq, onun pozulduğunu gördükdə cəzalandırmaq valideynin borcu və haqqıdır.

Məgər dövlət cinayət törədən vətəndaşı cəzalandırmırmı? Məgər bəzi qayda və qanunlar, tələblər havayı yerəmi qoyulub? Niyə valideynin öz uşağını danlamağa, qulaqburması verməyə haqqı çatmamalıdır? Bəlkə 15 yaşlı qızcığaz gecə saat 3-də pritondan atasına zəng eləyib desin ki mənim bəzi vacib işlərim var, özüm kefim istəyəndə evə gələcəm? Xeyr,bağışlayacaqsınız, bunlar hüquq deyil, anarxiyadır, mənəvi deqradasiyanın kulminasiyasıdır. Kəsəsi, bu arqumentə də bir quş.

İndi isə keçək yad dəyərlərin təbliğatçılarının ən yaralı yerlərindən birinə- cinsi azlıqların hüquqları məsələsinə. Bizim cəmiyyətdə cinsi azlıq nümayəndəsi şallaqlanırmı, ya da küçədə döyülürmü? Xeyr! Sadəcə, onlar cəmiyyətə nümunə göstərilib başa çıxarılmır. Onlara vəziyyətdən asılı olaraq ya xəstə kimi, ya da əxlaqi cəhətdən pozğun adam kimi baxırlar. Ən əsası onlar digər vətəndaşların istifadə etdiyi bütün sosial və sair hüquqlardan yararlanırlar. Bəlkə onlara, eyni işə görə normal adamlardan az maaş verilir, bəlkə onlar əmlak, sosial təminat, əmək hüququ məsələlərində ayrı-seçkiliyə məruz qalırlar? Xeyr.

Yaxşı, bəs onda nə deyib bizim ailə institutumuzu dağıtmaq, cəmiyyət əxlaqını dəyişmək istəyirlər? Çətin sualdır. Bunu bir zəhmət bu işlə ciddi məşğul olan beynəlxalq və yerli təşkilatların rəhbərlərindən soruşun. Mən imkan düşdükcə soruşuram ki, boğazları qurusun...

Dəyərlər dəyişib, dəyişir, dəyişəcək. Amma bu dəyişmə mütləq mənfi istiqamətdəmi olmalıdır? Müsbətə doğru dəyişmək olmazmı? Məgər mənəvi keyfiyyətlər maddi nemətlərdən istifadə, elmi-texniki inkişaf üçün problem yaradır? Yuxarıdakı nümunələrdə gördüyümüz kimi, yaratmır!



Deməli, inkişaf üçün milli-mənəvi dəyələri itirməyə, onu yad dəyərlərlə əvəzləməyə ehtiyac yoxdur. Hər mədəniyyətin özünün psixoloji-ruhi-mənəvi dəyərlər sistemi var. Texnoloji inkişafın bura heç bir dəxli yoxdur. Olsaydı, konservativ Yaponiya və ideoloji Çin ilə novator Amerika və rasional Avropa arasında elmi-texnoloji cəhətdən fərqlər çox olardı.

Mənə şəxsən aydın deyil, inkişaf etmək üçün mənəvi dəyərləri başqa sivilizasiyadanmı qəbul etməliyik, özümüzünkü yaramırmı? Yaramırsa, niyə misal üçün Sovet dövründə, həm dəyərlər qorunurdu, həm də ictimai, sosial, mədəni, elmi, texnoloji inkişaf gedirdi? Elə indi də, milli-mənəvi dəylərlərimiz elmi-texniki inkişafımıza heç bir problem yaratmır.

1-ci və 2-ci Qarabağ müharibəsində canını vətən və xalq uğrunda qurban verən gənclərimiz hansı tərbiyəni almışdılar? Əlbəttə ki, milli-mənəvi dəyərlərlə tərbiyə olunmuşdular. Onların arasında qulağı sırğalı, başı kəkilli, kalqotkla şalvarlı, güllü köynəkli, "azad seks" tələb edən, qərb dəyərlərinə inteqrasiya etmiş gənclərə heç rast gəlmədik. Geyim, düşüncə azaddır deyib keçməyəcəyik, hər şey elə geyimdən, davranışdan, düşüncədən başlayır. Geyim əxlaq ölçüsü deyil iddiaları gülüncdür. Geyim əsas əxlaqı ölçülərindən biridir. Çünki, məsələbn hələ heç bir ölkədə özünə və başqalarına hörmət edən əxlaqlı qadının fahişə geyimində gəzməsi faktına rast gəlinməyib.

Bizim elmi, texnoloji, vətəndaş cəmiyyəti kimi məsələlərdə dünyanın inkişaf etmiş ölkələrinə inteqrasiya olunmağımız lazımdır, amma bunu mənəvi-əxlaqi məsələlərlə bağlı demək mümkün deyil.

Yuxarıda göstərdiyimiz kimi, "müasir" dəyərlərin Qərb cəmiyyətlərini çox ağır mənəvi deqradasiyaya məruz qoyduğu, ailə institutunu dağıtdığı beynəlxalq təşkilatların hesabatlarında aydın şəkildə göstərilib. Təəssüf ki, müasir qərb dəyərlərinə keçəndən sonra bizdə də bu göstəricilər faciəvi həddə çatıb. Amma özümüzə dönməyimiz üçün hələ də gec deyil. Qloballama isə yalnız bütün cəmiyyətlər tərəfindən qəbul edilən bəşəri dəyərlər üzərində qurulmalıdır, hansısa cəmiyyətin öz dəyərlərini bütün dünyaya qəbul etdirilməsi üzərində yox.

Azərbaycan öz qədim, möhtəşəm milli-mənəvi dəyərləri üzərində öz inkişafını davam etdirməlidir. Prezident İlham Əliyev çıxışlarında özünün və dövlətin bu məsələdəki qəti və konkret mövqeyini dəfələrlə aydın şəkildə ortaya qoyub. Bəzi sitatları əlavə edirik.

"Biz milli-mədəni dəyərlərimizi gələcək nəsillər üçün qorumalıyıq ki, Azərbaycanın davamlı, uzunmüddətli inkişafı təmin edilsin. Biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil də bu ruhda tərbiyə almalıdır. Çünki bu gün qloballaşma prosesi gedir. Bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları bir növ öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər. Budur bunun təməlində dayanan əsas məqsəd.

Əlbəttə ki, indi qloballaşma deyəndə bəziləri bunu inteqrasiya, dünyanın yeni inkişaf modeli kimi qələmə verirlər. Ola bilər, müsbət məqamlar da var, onları mən inkar etmək istəmirəm. Ancaq, eyni zamanda, açıq-aydın görünür, bu siyasətlə böyük dairəyə hakim olmaq, təsir imkanlarını genişləndirmək istəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz əcdadlarını, tarixlərini unutsunlar, sadəcə amorf, kosmopolit bir kütləyə çevrilsinlər ki, onları istənilən istiqamətə göndərmək mümkün olsun. Ona görə milli ruhda tərbiyə almaq hər bir gəncin borcudur. Bu gün Azərbaycan müasir, inkişaf edən ancaq öz köklərinə sıx bağlı olan dövlət və cəmiyyətdir. Həmişə də belə olmalıdır. Nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq. Ölkəmizin müstəqil həyatı üçün bu, əsas şərtdir...

...Bəzi hallarda belə sözlər işlədilir ki, biz Avropaya inteqrasiya etməliyik. Mən artıq dəfələrlə demişəm, bizi heç yerə inteqrasiya etməməliyik... biz haraya inteqrasiya etməliyik? "Stop İslam!" deyənlərə? Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik...".

Hesab edirəm ki, dövlətimizin rəsmi mənəvi-ideoloji kursu haqda əlavə şərhə ehtiyac yoxdur. İndi qalır bu siyasətə qarşı çıxan xarici və daxili qüvvələri zərərsizləşdirmək. Bununla isə aidiyyatı dövlət orqanları məşğul olmalıdır. Biz isə cəmiyyət olaraq öz dəyərlərimizi qorumalı və yaşatmalıyıq. Əgər bir millət olaraq mənəvi cəhətdən məhv olmaq istəmiriksə

***Elçin Bayramlı***

# XİN: "Antiterror tədbirlərini Ermənistanın "etnik təmizləmə" kimi qələmə verməsi qəbuledilməzdir"

Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək ölkəmizin Qarabağ iqtisadi rayonundan tamamilə çıxarılması, həmin ərazilərdə Azərbaycanın suverenliyinin və konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə lokal xarakterli antiterror tədbirlərinin Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən "Dağlıq Qarabağa hücum" və "etnik təmizləmə" kimi qələmə verilməsi qəbuledilməzdir. SİA xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan Xarici İşlər Nazirliyinin 19 sentyabr tarixli bəyanatını şərh edərkən bildirib.Qeyd edilib ki, sülhpərvər ölkə olduğunu iddia etməsinə baxmayaraq, Ermənistan tərəfindən Azərbaycanın əzəli və əbədi torpağı olan Qarabağın "Dağlıq-Qarabağ" kimi qondarma adlarla çağırılması Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı hörmətsizliyin bariz nümunəsidir:"Ötən ilin 19-20 sentyabr tarixləri arasında Silahlı Qüvvələrimiz tərəfindən cəmi 24 saatdan az bir müddətdə öz suveren ərazilərimizdə aparılan antiterror tədbirləri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə həyata keçirilib. Azərbaycanın öz torpaqları üzərində suverenliyini bərpa etməsi tarixinin ən şanlı səhifələrindən biri olmaqla yanaşı, beynəlxalq hüquq və ədalətin təntənəsidir.



Ermənistanın 2020-ci il Vətən müharibəsində düçar olduğu məğlubiyyətə və qəbul etdiyi öhdəliklərə baxmayaraq və 2023-cü ilədək keçən üç ilə yaxın müddət ərzində öhdəliklərinə zidd şəkildə, nəinki öz qanunsuz silahlı birləşmələrini Azərbaycanın Qarabağ bölgəsindən çıxarmadığı, hətta Azərbaycan ərazilərinə əlavə silah-sursat, hərbi texnika, minalar ötürdüyü məlum idi. Azərbaycana qarşı mina terrorunu davam etdirən Ermənistan, zaman keçdikcə onun daha geniş vüsət almasına rəvac verirdi. Ermənistan rəsmiləri hər vəchlə ərazilərimizdə saxladıqları qondarma rejimin təbliğatını apararaq, Ermənistan baş naziri 2 sentyabr 2023-cü il tarixində qondarma "müstəqillik" ilə bağlı separatçı rejimə təbriklərini çatdırdı".Məlumatda o da bildirilib ki, Azərbaycanın tarixi və beynəlxalq hüquqi çərçivədə mövcud olan ərazilərinə qarşı əsassız iddialarından, tarixin saxtalaşdırılmasından əl çəkməyən, beynəlxalq hüquq prinsiplərini kobudcasına pozan, yürütdüyü təcavüz siyasəti səbəbindən düşdüyü acınacaqlı vəziyyətdən nəticə çıxarmayan Ermənistanın heç bir çərçivəyə sığmayan bu kimi davranışlarının qarşısının alınması əsas şərtlərdən olub:"2023-cü ilin sentyabrın 19-da erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində 6 Azərbaycan vətəndaşının həlak olması isə Azərbaycanın səbir kasasının daşmasına səbəb oldu və antiterror tədbirlərini qaçılmaz etdi. Ermənistan tərəfinin təhrikedici səylərinə və təbliğatına baxmayaraq, antiterror tədbirləri aparıldığı zaman mülki əhali hədəf alınmadı, mülki infrastruktura zərər vurulmadı, yalnız legitim hərbi infrastruktur və obyektlər sıradan çıxarıldı. Yaşayış yerlərini tərk etməmək barədə Azərbaycan tərəfinin çoxsaylı çağırışlarına, tətbiq etdiyi reinteqrasiya proqramına baxmayaraq, erməni sakinlər Azərbaycan ərazilərini tərk etmək barədə qərar verdilər. Bu onların azad seçimi idi və bunu "etnik təmizləmə" kimi qələmə vermək, Ermənistan və işğal etdiyi Azərbaycan ərazilərindən azərbaycanlıları kütləvi şəkildə qovan, soyqırımı və kütləvi qırğınlar törədən Ermənistanın riyakarlığını nümayiş etdirir".

Diqqətə çatdırılıb ki, Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpasından sonra Ermənistan-Azərbaycan əlaqələrinin normallaşdırılması və nəticə etibarilə yekun sülh sazişinin imzalanması üçün tarixi fürsət yaranıb:"Bu baxımdan Azərbaycanın regionumuzun təhlükəsizliyi və tərəqqisi naminə sülh prosesinin təşəbbüskarı olduğu və bu istiqamətdə həqiqi səylər göstərdiyi məqamda Ermənistan konstitusiyasında və digər qanunvericilik aktlarında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddiaların qalması qəbuledilməzdir və Ermənistan tərəfindən tarixi sülh fürsətinin əldən verilməməsi üçün sözügedən iddiaların aradan qaldırılması istiqamətində tezliklə lazımi adekvat addımların atılması zəruridir. Azərbaycan xalqı və dövləti üçün bu tarixi önəmli gündə bir daha Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən vətən övladlarımızın əziz xatirəsini dərin hörmətlə yad edirik. Şanlı Silahlı Qüvvələrimizlə fəxr edir, dövlətimizin və xalqımızın hər zaman müzəffər olmasını diləyirik!".

# Əli Kərimli dövrü bitir

## *Milli Şuranın sədri Cəmil Həsənli Əli Kərimli haqqında "nekroloq" yazdı*







Yalan və böhtanlarla siyasətdə uğur qazanmaq mümkün deyil. Çünki siyasət düzlüyü və ədaləti mövqeyə əsaslanır. Ola bilər ki, populist çıxışlarla, şirnikləndirici vədlərlə diqqət mərkəzinə çevrilib, reytinq qazanmaq olar. Lakin bir qədər sonra hər şey aşkarlanır və bu zaman həmin siyasi dəllal yüksəklikdən yuvalanıb ayaqlar altına düşür. Eyni ilə dağıdıcı müxalifət düşərgəsində yer alan boşboğaz məxluqlar kimi. Uzun illərdir ki, AXCP sədri Əli Kərimli, Milli Şuranın rəhbəri Cəmil Həsənli, Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbər, Arif Hacılı və digərləri yalan vədləri, populist çıxışları ilə cəmiyyətin diqqətini özlərinə cəlb etməyə və siyasi imic qazanmağa çalışıblar. Lakin onlar arzu etdikləri xəyallarını gerçəkləşdirə bilmirlər. Çünki cəmiyyət siyasi cəhətdən kifayət qədər yetkindir və nəyin yaxşı, nəyin pis olduğunu gözəl anlayır. Bu baxımdan dağıdıcı boşboğazların söylədikləri əhəmiyyətsiz fikir olaraq dəyərləndirilib, rədd edilir. Digər diqqətçəkən məqam ondan ibarətdir ki, siyasi imicdən məhrum olunan partiya sədrlər ictimai rəyin rəğbətini qazana bilmədikləri üçün istefa verməli məcburiyyətində qalırlar. Belə vəziyyətlə hazırda AXCP sədri Əli Kərimlinin üzləşdiyi müşahidə edilir. Faktlar və AXCP-də gedən acınacaqlı proseslərə əsasən demək olar ki, Ə.Kərimlidən öncə partiyanın kollegial orqanlarında təmsil oluna şəxslər istefa verirlər. Bir neçə gün öncə AXCP Rəyasət Heyətinin üzvü Asif Yusifli Ə.Kərimlinin yanlış, səhv siyasət aparmasına etiraz əlaməti olaraq partiyadan istefa verdiyini bəyan etmişdir. A.Yusifli istefa ərizəsində AXCP-nin parlament seçkilərini "boyok" qərarının yanlış olduğunu və Ə.Kərimli bu qərarı verməklə cəbhəçilərə açıq şəkildə hörmətsizlik nümayiş etdirdiyini qeyd edib.

### İlham Hüseyn əvvəl istefa verdi və sonra da pul qarşılığında qərarından imtina etdi

AXCP Rəyasət Heyətinin üzvü Asif Yusiflinin ardınca partiya daxili trol dəstəsinin başçısı İlham Hüseyn də istefa verdiyini açıqlayıb. O özünün sosial şəbəkə hesabında Ə.Kərimlinin cəbhəçilərin mənafeyinə zidd siyasətini sona qədər dözmək fikrində olmadığını və çıxış yolunu partiyadan istefa verməkdə gördüyünü bildirib. İ.Hüseyn A.Yusiflinin istefasının onu cəsarətləndirdiyini və ortaya istefa mədəniyyəti qoyduğunu qeyd edib: "Artıq mən bu yolu bitirirəm, hesab edirəm ki, yeni üzvlərə imkan vermək lazımdır. Hər birinizə uğurlar, istefa vermək özü bir mədəniyyətdir".

Maraqlıdır ki, İ.Hüseyn AXCP-dən istefa verdiyini bəyan etsə də, partiyanın sədr müavini Fuad Qəhrəmanlı ilə "Nərimanov" metrostansiyasının yanındakı çayxanadakı söhbətdən sonra simasına uyğun mövqeyini dəyişib. Axşam saatlarında yenidən klavyaruta önünə keçərək iki fərqli status paylaşıb. Birincisində istefasından imtina etdiyini və AXCP-dəki yolunu davam etdirəcəyini qeyd edib. İkinci saat sonra həmin statusunu silərək ənənəvi metodlarından istifadə edib. Yazıb ki, guya onun səhifəsini oğurlayıb, adından AXCP-dən istefa verməsi haqqında status paylaşılıb. Əsl Ə.Kərimli qrupuna xas riyakarlıq və simasızlıqdır. Nədən ki, istefa verdiyin halda iki saat sonra fikrini niyə dəyişirsən? İkincisi, niyə məhz F.Qəhrəmanlı ilə görüşdən sonra Mark Zuckerbergə şər atmaq yolunu tutdun? Sual edilir, sən kimə lazımsan və sənin adına saxta səhifə hazırlamaq kimə lazım ola bilər? Təbii ki, uydurma və şişirdilmiş yalan və sərsəmləmədir. Əsl həqiqət isə ondan ibarətdir ki, AXCP-dən istefa vermisən və F.Qəhrəmanlı sonradan səni fikrindən daşındırıb. Nəyin qarşılığında, o da müəmmalı deyil. F.Qəhrəmanlı İ. Hüseynə adının yenidən AXCP-nin "maaş alanlar" siyahısına daxil ediləcəyi vədini verib. Hətta ona cib xərcliyi də verdiyi bildirilib. Bu vədlər İ.Hüseyni istefa qərarını geri oxumağa məcbur edib. Lakin hadisələrin inkişafı təsdiq edir ki, artıq AXCP-nin dağılması prosesi başlayıb və onun qarşısını kimlərinsə adlarını "maaş alanlar" siyahısına daxil etməklə almaq mümkün deyil. Yalnız bir halda AXCP-nin dağılmasının qarşısını almaq olar ki, o da KAXCP sədri Mirmahmud Mirəlioğlu, REAL partiyasının sədri İlqar Məmmədov kimi Ə.Kərimlinin də istefa mədəniyyəti göstərməsidir.

### AXCP-nin fəaliyyəti sosial şəbəkələrdən uzağa getmir

AXCP-nin dağılmaqdan xilası yalnız qeyd olunduğu kimi Ə.Kərimlinin sədrlikdən istefasından keçir. Hələlik isə, Ə. Kərimli partiyanın əsas çoxluğuna qarşı çıxmaqdadır. Bu isə Ə.Kərimli ilə kollegial orqanların təmsilçiləri və sıravi cəbhəçilərlə ciddi qarşıdurma yaradır. Düzdür, elə şəxslər var ki, onlar ƏKərimlinin sədrlikdə qalmasında maraqlıdır. Səbəb də onların Ə.Kərimli vasitəsi ilə böyük qrantlar almasıdır. Məhz qrant almaq xatirinə sosial şəbəkələr üzərindən Ə.Kərimlinin təbliğatını aparır, onun haqqında bər-bəzəkli tərifli statuslar paylaşırlar. Verilən məlumatlara görə, Ə.Kərimlinin yalançı təbliğatının aparılması üçün yüzlərlə saxta səhifələr yaradırlar. Xatırlatmaq lazımdır ki, AXCP-nin keçmiş təşkilat şöbəsinin müdiri Ağaşirin Tanrıverdioğlu bildirmişdir ki, AXCP-dəki trolların əsas işgücü saxta profillər vasitəsilə partiya sədri Ə.Kərimlinin "like"larını artırmaqdır: "Saxta profillər kifayət qədər çoxdur. Rəyasət Heyətində elə şəxslər var ki, onlarla saxta profilləri var. Əli Kərimlinin statuslarına gələn 4-5 min "like"dən saxtaları çıxsaq, 200-300 bəyənmə ancaq olar. Çünki 70-80 faiz saxta profildir. Göstəriş Əlidən Məmməd İbrahimə gəlir. Profil sındırmaq da bunlar üçün adi hal alıb. Onlarda xüsusi kodlar var. Onun vasitəsilə ya profili bağlayırlar, ya da oğurlayırlar. Bunlar artıq o işlərdə "püxtələşiblər". Ağaşirin Tanrıverdioğlu onu da qeyd etmişdi ki, partiyada bəzən 4-5 saat davam edən iclasın çox hissəsi Facebook səhifəsində sədrin statuslarının laylarının sayılmasına gedirdi: "Bu qədər xırdalıqlara getmək düzgün ola bilməz. Laykları saymaq düzgün siyasət ola bilməz. Mən bu xırdalıqların hər zaman əleyhinə olmuşam".

AXCP sədrinin keçmiş müavini, hazırda Milli Cəbhə Partiyasının sədri olan Razi Nurullayev də Ə.Kərimli tərəfindən Facebook-da partiya üzvlərinə yüzlərlə saxta profil yaratmaq tapşırıldığını bildirmişdir: "Bəzilərinin 100-110 saxta profili var idi. Facebook-da şərtlər sərtləşdirildikdən sonra onların yarısı bağlandı. Amma indi də partiyanın idarə heyətində təmsil olunan şəxslərin 30-40 saxta profili var".

Bir sözlə, görünən ondan ibarətdir ki, Ə.Kərimli özünü saxta profillər yaratmaqla təbliğ etməyə çalışır. Bunun üçün partiya daxilində trol dəstəsi yaratmaqdan çəkinmir. Lakin reallıqlara əsaslanaraq demək olar ki, artıq Ə.Kərimlinin AXCP-dəki dönəmi bitməkdədir. Çünki AXCP-dəki narazılıqlar məhkəmələrə qədər gedib çıxmaqdadır. Vəziyyətin heç də Ə. Kərimlinin xeyrinə işləmədiyini dərk edən Milli Şuranın sədri Cəmil Həsənli şərikinin durumundan acıdığını və ona kömək etməkdə çətinlik çəkdiyini bildirib. Hətta C.Həsənli sosial şəbəkə hesabında Ə. Kərimli haqqında boş və mənasız cızma-qarası ilə ona təskinlik verməyə cəhdlər göstərib. Bu isə ölüm yatağında olan şəxs haqqında əvvəlcədən yayılması üçün hazırlanan nekroloqa bənzəyir.

**İLHAM ƏLİYEV**

# "İctimai nəqliyyatda gediş haqqı sahibkarın sərmayəsi hesabına maliyyələşə bilməz"

*Nəqliyyat eksperti mühüm detalları açıqladı*



**"Qatarların, avtobusların sayını artırmaqla, avtobus zolağı çəkməklə tıxacın düzələcəyini gözləmək olmaz. Öz növbəsində bunlar da lazımdır". Bunu SİA-ya açıqlamasında nəqliyyat eksperti Ərşad Hüseynov deyib. O bildirib ki, biz buna tıxac yox, müasir, dayanıqlı mobilliyi təmin etmək deyə bilərik: "Bakı şəhərində, Abşeronda dayanıqlı mobilliyi təmin etmək hədəfdir. Bunun üçün çox ciddi işlər görülməlidir, amma kompleks işlər olmalıdır. Bu dəqiqə çatışmazlığımız odur ki, işlər kompleks şəkildə həyata keçirilməlidir. Bu kompleks işlər içində nəqliyyatdan kənar məsələlər də var. Yol hərəkətinin Təhlükəsizliyinə aid Dövlət Proqramı 2018-ci ildə qəbul olundu. Kağız üzərində qaldı, icra olunmadı. Orada konsepsiyalar var idi, bəzilərini götürdülər.**

Mobillik məsələsi şəhərsalma məsələsinin tərkib hissəsidir. Şəhərsalma, məskunlaşma o deməkdir ki, burada insanlar yaşayacaq. Həmin insanların hərtərəfli sosial həyatı təmin olunmalıdır. Hərtərəfli sosial həyatın ən vacib elementlərindən biri də mobillikdir. Yəni insan bir nöqtədə bütün həyatını keçirmir. Bir yerdə yaşayır, başqa yerdə işləyir, oxuyur. İstirahət, turistik səfərlər, dost-tanışla görüş, alış-veriş və sair. insanların bu ehtiyaclarını ödəmək üçün mobilliyə ehtiyac var. Mobillik də şəhərsalmanın tərkib hissəsidir. Ona görə də Bakı şəhərinin Baş planının içində həm də Bakı şəhərinin mobillik planı olmalıdır".

Onun sözlərinə görə, Azərbaycanda sosial aktiv əhalinin haradasa 50%-i, bəlkə də, çoxu Bakı şəhərində yaşayır: "Bunun qarşısı mədəni şəkildə alınmalıdır. Rayonları, regionları inkişaf etdirmək lazımdır. Oraya sərmayə qoyub biznesi qaldırmaq lazımdır. Avropanın demək olar ki, heç bir ölkəsində Azərbaycandakı kimi təmərküzləşmə yoxdur. Məsələn, İtaliyanın 60 milyon əhalisinin cəmi 4 milyonu paytaxtda yaşayır. İkincisi isə Bakının ətrafında məskunlaşma ilə bağlı çox ciddi səhvlərə yol verilib. Onlar aradan qaldırılmalıdır, ordakı infrastruktur bərpa olunmalıdır. Məsələn, Bakı ətrafı yaşayış massivində 10 min əhali yaşayır, amma bir məktəbi yoxdur. Ona görə də hamı dərslər başlayana kimi Bakıya gəlir və tıxac yaranır. Orada məktəb olsa, həmin insanlar Bakıya gəlməyəcəklər. Eynən də iş yerləri, istirahət yerləri, alış-veriş yerləri, tibb müəssisələri hamısı elə olmalıdır ki, insanlar uzağa getməyə ehtiyac görməsinlər.

Daha sonra ancaq nəqliyyata gəldikdə ictimai nəqliyyat inkişaf etməlidir. Dünya təcrübəsi göstərir ki, dayanıqlı mobilliyin təmin olunmasında ictimai nəqliyyatın alternativi yoxdur. Bir nömrəli hədəf bu olmalıdır. İctimai nəqliyyat gediş haqqı, sahibkarın sərmayəsi hesabına maliyyələşə bilməz. Bura dövlət, yaxud da bələdiyyə sabit, dayanıqlı maliyyə vəsaiti qoymalıdır ki, bu sahə inkişaf etsin. Metronun stansiyalarının sayı artsın, avtobuslar yenilənsin. Abşeronda 100 minlərlə insanın ictimai nəqliyyata əli çatmır. Məcbur olur ki, ancaq avtomobildən istifadə etsin. Bu istiqamətdə işlər görülməlidir. Bəzi yerlərdə tramvay xətləri bərpa olunmalıdır. Çünki tramvay yüksək dayanıqlılığı olan və keyfiyyətli sərnişin daşıma xidməti göstərən, təhlükəsiz nəqliyyatdır. Qatarlar da dayanıqlı, stabil nəqliyyat növüdür. Şəhərətrafı qatar şəbəkəsini genişləndirmək, inkişaf etdirmək lazımdır. Amma bunların sabit maliyyə mənbəyi olmalıdır, hər şey bölünməlidir. Şəhərsalma, mobillik planının içində dəqiq, aydın konsepsiya ilə davamlı kompleks surətdə getməlidir. Yoxsa yerində sayıb kosmetik hansısa məsələləri həll edib növbəti problemlə qarşılaşanda yenə də başımızı tutacağıq ki, "bundan sonra nə edək?".

***Söylü Ağazadə***

RƏYLƏR



# Televiziyaların fəaliyyəti biz qane edirmi?



"Sovet dövründə televiziya elm, mədəniyyət məbədi idi, bütün ictimai təbliğatın məkanı sayılırdı və onun kommersiya maraqları yox idi. Sonrakı dövrdə isə kommersiya televiziyaları yarandı, bugünkü problemlərin də səbəbi budur. Biz bu gün birmənalı olaraq deyə bilmərik ki, ölkədə efir mədəniyyəti yoxdur. Dövlət televiziyalarında televiziya məbədi funksiyası özünü saxlayıb, burada ancaq ciddi sosial, iqtisadi, siyasi, mədəni və s. verlişlər yayımlanır. Hətta verilən kinolara, musiqilərə belə xüsusi diqqət göstərilir. Kommersiya televiziyalarının isə sosial məsuliyyəti yoxdur. Burada yeganə məqsəd gəlir əldə etməkdir. Bu baxımdan bütün mənəvi, sosial öhdəliklər kənara atılır və yalnız biznes maraqları nəzərə alınır".

**Bu sözləri SİA-ya açıqlamasında "TvPress" internet qəzetinin baş redaktoru Elçin Bayramlı deyib.** O bildirib ki, medianın məlumatlandırma, maarifləndirmə və əyləndirmə kimi üç funksiyası var: "Kommersiya televiziyalarında məlumatlandırma və maarifləndirmə vacib hesab olunmur, çünki bunlar pul gətirmir. Göründüyü kimi yalnız əyləndirmə funksiyası nəzərə alınır. Lakin bu funksiyanı da yüksək səviyyəli materiallarla da həyata keçirə bilərlər. Lakin kommersiya kanalları buna üstünlük vermirlər, çünki kütlənin marağını cəlb etmir və az reklam gətirir. Buna görə də yalnız saxta şou yaratmağa fokuslanıblar. Xalqın mənəviyyəti, tərbiyəsi kimi məsələlər qəti şəkildə kommersiya kanallarını maraqlandırmır. Buna görə də özəl televiziyalar xalqın ən böyük düşmənidir, mənəvi-psixoloji terrorla məşğuldular.

Digər tərəfdən fəaliyyət göstərən Böyük Britaniyanın reytinq şirkəti saxta reytinq siyahıları ilə televiziya, efir məkanını müəyyənləşdirir. Həmin şirkət araşdırmalarını apara bilmək üçün cəmi 400 evdə qurğular quraşdırmış və Azərbaycan əhalisinin daha çox hansı tip proqramlara üstünlük verdiklərini müəyyənləşdirməyə çalışırdılar. Amma bu gülünc hadisədir. Çünki 10 milyonluq əhalinin nəyə baxdığını 400 nəfər müəyyənləşdirə bilməz. Bunun əsasında isə saxta reytinq siyahıları hazırlanır və kanallara təqdim olunurdu. Zənnimcə, bunu qəsdən edirdilər ki, xalqımızın mənəvi dəyərlərini tədricən məhv etsinlər. Buna görə də Azərbaycanda televiziya dedikdə yalnız "AzTV" və "Mədəniyyət" kanalını nəzərdə tuturam. Digər kanallar isə sadəcə efir tezliyi almış studiyalardır. Hər zaman da cəmiyyəti bu kanalları "boykot" etməyə çağırmışam. Həmçinin burada cəmiyyətin də üzərinə böyük məsuliyyət düşür. Belə ki, cəmiyyət sözügedən kommersiya kanallarını izləməməli və bununla da onları "boykot" etməlidir. Beləliklə, həmin kanallar yavaş-yavaş sıradan çıxacaq. Yəni, sağlam cəmiyyət istəsə, "boykot" metodu ilə həmin kanalları sıradan çıxara bilərlər".

**Məsələ ilə bağlı sosioloq Əhməd Qəşəmoğlu fikirlərini bölüşüb:** "Efir mədəniyyəti ilə bağlı problemlər artıq 20 ildən artıq müddətdir ki, davam edir. Dəfələrlə bəzi məqamların tənqid olunmasına baxmayaraq, son 1-2 il ərzində yalnız bir qədər irəliləyiş əldə olunub.



Ümumilikdə isə efir mədəniyyəti arzuolunan səviyyədə deyil.

Efir mədəniyyəti yalnız bilik deyil. Sosial psixologiyada kütlə mədəniyyəti deyilən anlayış var. Kütlə mədəniyyətinin formalaşmasında isə lider insanların, efirin çox böyük rolu olur. Buna görə də efirdə atılan addımlar insanlara çox tez təsir edir. Bu səbəbdən də efirdə elə davranış sərgiləmək lazımdır ki, biz sabah həmin davranışları xalqımızda görmək istəyək. Birmənalı şəkildə efir mədəniyyətinin çərçivələrini müəyyənləşdirmək lazımdır. Hər bir televiziya kanalının öz normaları olmalıdır ki, insanlar da öz davranışlarına hakim ola bilsinlər".

***Səbinə Hüseynli***

# "Bakcell"dən abunəçilərə geniş seçim imkanı verən "Star" tarifi




İnnovasiya və sürət lideri "Bakcell" danışıq dəqiqləri, internet və digər imkanları özündə birləşdirən "Star" tarifini təqdim edir. Abunəçilər 9 fərqli kateqoriyada təklif olunan tarifi seçməklə əlavə internet bonusları da əldə edəcəklər. "Star" tarifinə qoşulan abunəçilər ölkədaxili zənglər üçün dəqiqələr və internetlə yanaşı, "WhatsApp" və "Telegram" tətbiqlərində yazışmaları ödənişsiz həyata keçirəcəklər. Üstəlik, tarif paketi ardıcıl üç dəfə yeniləndikdən sonra hər növbəti yenilənmə zamanı abunəçilərə əlavə internet bonusları təqdim olunacaq.

Məsələn, "Star 6GB" tarifinə 550 danışıq dəqiqəsi, 6GB internet balansı və "WhatsApp" və "Telegram" tətbiqlərində ödənişsiz mətn yazışmaları daxildir. Bundan əlavə, tarif paketi ardıcıl üç dəfə yeniləndikdən sonra abunəçilərə hər yenilənmə zamanı əlavə "2GB" internet bonus olaraq təqdim olunacaq. "Star 6GB" tarifinə "*600#YES" kodunu yığmaqla asanlıqla keçmək olar. Tarif paketinin dəyəri 14,90 AZN-dir. Cari tarifdən "Star" tarifinə keçid tamamilə ödənişsizdir. Qeyd edək ki, 9 fərqli kateqoriyada təqdim olunan "Star" tarifi barədə ətraflı məlumatı "Bakcell"in saytından əldə etmək mümkündür.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir. "Bakcell" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# "ABŞ-da ən maraqlı prezident yarışlarından birinin şahidi olacağıq"

"ABŞ Konqresinin 1845-ci ildə qəbul etdiyi qanuna görə, prezident seçkiləri dörd ildən bir noyabrın ilk bazar ertəsindən sonrakı çərşənbə axşamı keçirilir. Bu qanuna əsasən, 2024-cü il noyabrın 5-də keçiriləcək prezident seçkilərinə yeddi həftə qalıb. Seçki prosesi başlayandan bəri ən mühüm qırılma nöqtəsi Co Baydenin yerinə Demokrat Partiyasının namizədi olaraq Kamala Harrisin seçilməsi oldu. Əks halda, xüsusilə Donald Turmp-a sui-qəsd cəhdindən sonra respublikaçı seçicilərin səfərbərliyi səbəbindən 2024-cü il prezident seçkiləri qalibin asanlıqla proqnozlaşdırıla biləcəyi bir yarış olacaqdı (1964 və 1976-cı illərdə olduğu kimi). Bu yaxınlarda dərc edilmiş federal və ya əyalət səviyyəsində sorğuların ümumi nəticəsi odur ki, 5 noyabr 2024-cü ildə Harris və Tramp arasında, bəlkə də 2000-ci ildə Corc Buş və Albert Qor arasında olan yarışa bənzər uzunmüddətli seçki yarışının şahidi olacağıq. 2020-ci il prezident seçkiləri nəticəsində Kamala Harris ABŞ-ın ilk qadın vitse-prezidentliyə namizədi (1984-cü il prezident seçkiləri) Ceraldine Ferrarodan fərqli olaraq ölkəsinin ilk qadın vitse-prezidenti olmağı bacardı". Bu sözləri SİA-ya açıqlamasında politoloq Züriyyə Qarayeva deyib. O bildirib ki, ABŞ-ın ilk qadın prezidentliyə namizədi Hillari Klintonun 2016-cı il prezident seçkilərində edə bilmədiklərini Harris 2024-cü ildə edə və ölkənin ilk qadın prezidenti ola biləcəkmi? Bu sualı müzakirə etməzdən əvvəl ABŞ prezident seçkilərində tətbiq olunan sistemi qısaca izah etmək faydalı olardı.





ABŞ-da prezident seçkiləri ikipilləli seçki sistemi ilə keçirilir. Müvafiq olaraq, prezident birbaşa xalq tərəfindən deyil, üzvlərinin xalq tərəfindən seçildiyi "Seçki Şurası" tərəfindən seçilir. Seçki Şurası 538 üzvdən ibarətdir. Ümumi 538 üzvdən 100 üzv 50 federasiya ştatının hər birindən seçilmiş iki üzvdən ibarətdir. Qalan 438 üzvdən üçü "xüsusi bölgə statusu" olan Vaşinqtondan seçilir. Qalan 435 üzv 50 federasiya ştatından seçilir və hər 10 ildən bir keçirilən siyahıyaalmaya görə neçə üzvün hansı federativ əyalətdən seçiləcəyi müəyyən edilir. 2021-ci ildə açıqlanan siyahıyaalmaya görə yeni bölgü 2020-ci il prezident seçkilərindəki bölgü ilə müqayisədə Trampın xeyrinədir.

Müəyyən bir federasiya ştatına ayrılmış Seçki Şurası üzvlərinin bütün sayı həmin ştat səviyyəsində ən çox səs toplayan prezidentliyə namizəd tərəfindən qazanılır. Bu qaydanın iki istisnası Maine və Nebreskadır. Maine (dörd nümayəndə) və Nebraskada (beş nümayəndə) Seçici Kollegiyasına ayrılmış iki üzv ştat səviyyəsində, qalan üzvlər isə dar dairə səviyyəsində ən yüksək səsə malik namizəd tərəfindən qazanılır. Bu səbəbdən də hər iki federasiya ştatından seçilən Seçki Şurasının üzvlərinin namizədlər arasında bölüşdürülməsi mümkündür. Əslində, 2020-ci il prezident seçkilərində hər iki namizəd (Bayden və Tramp) iki federasiya ştatından fərqli sayda üzv topladılar.

ABŞ prezident seçkiləri iki mərhələdən ibarətdir; Yəni prezidentin birbaşa xalq tərəfindən deyil, üzvlərinin xalq tərəfindən seçildiyi Seçki Şurası tərəfindən seçilməsi Şuraya seçilən üzvün başqa ada səs verib-verməməsi sualını yarada bilər. Bu ehtimal keçmişdə olsa da, seçkinin nəticəsini dəyişəcək şəkildə baş vermədi. Bu nümunələr seçkidə uduzan namizədə qarşı səsvermə seçimlərindən ibarətdir. Məsələn, 2016-cı il prezident seçkilərində Havaydan seçilmiş Seçicilər Kollegiyasının üzvü Klintona yox, Berni Sandersə səs verib.

İki mərhələli seçkinin nəticələrindən biri də odur ki, ölkə üzrə səs çoxluğunu toplayan namizəd, Seçki Şurasında prezident seçilmək üçün tələb olunan 270 üzvə çata bilməyəcəyi üçün prezidentliyini itirə bilər. Çünki məsələn, Kaliforniyadan 50 faiz + 1 ilə qazanılacaq Seçki Şurası üzvlərinin sayı yüzdə 80 səslə qazanılacaq üzvlərin sayı ilə eynidir. Namizədlərə verilən qalıq səslərin toplanan üzvlərin sayına heç bir təsiri yoxdur.

## Sorğular nə deyir?

Kamala Harrisin namizəd olaraq açıqlandığı Demokratik Partiya Konqresindən sonra (19-22 avqust) CNN tərəfindən aparılan sorğuya görə, Viskonsin və Miçiqan ştatlarında Harris; Trampın Arizonada şanslı olduğu görünür. Eyni sorğu göstərdi ki, Harris Corciya və Nevada ştatlarında cəmi 1 xal, Pensilvaniyada isə bərabərdir. Harvard Universiteti ilə xüsusi razılaşması olan London mərkəzli Redfield & Wilton Strategies tərəfindən 6-9 sentyabr tarixlərində aparılan sorğuda Tramp Arizona, Corciya və Nevada ştatlarında; Harris Şimali Karolina, Miçiqan və Viskonsin ştatlarında irəliləyib. CNN sorğusunda olduğu kimi, bu sorğu da Pensilvaniyada namizədlərin bərabər səs nisbətinə malik olduğunu müəyyən edib. Bununla belə, Redfield & Wilton Strategies öz sorğularını müqayisə edərək, Trampın son vaxtlar bir qədər yüksəliş trendində olduğunu vurğulayır. Trampın son vaxtlar cüzi yüksəlişdə olduğunu ümummilli sorğu keçirən YouPoll da təsdiqləyir və son sorğuya görə, hər iki namizədin dəstək nisbəti 45 faizdir (qərarsız seçicilər istisna olmaqla).

Çox güman ki, həm seçki sistemi, həm də hər iki namizədin seçiciləri səfərbər etmək qabiliyyətinə görə (mənfi və/və ya səsvermə nəticəsində) ABŞ-ın siyasi tarixində ən maraqlı Prezident yarışlarından birinin şahidi olacağıq. İctimai rəy sorğularının demokratların lehinə olduğuna dair iddialara məhəl qoymayaraq və səsvermə davranışına təsir edəcək qeyri-adi inkişafın olmayacağını fərz etsək, 5 noyabr 2024-cü il Çərşənbə axşamı günü bizə 2000-ci ili xatırladacaq bir nəticə ilə qarşılaşacağımız olduqca mümkün görünür. Bu vəziyyət Seçki Şurasının üzvlərinin namizədlər arasında bölüşdürülməsində proporsional seçki sisteminə uyğun düsturdan istifadə edilməməsindən irəli gəlir. Ölkə üzrə səs çoxluğunu qazanan namizədin prezident seçilmədiyi beş seçki nümunəsi var: 1824, 1876, 1888, 2000 və 2016-cı il prezident seçkiləri. Yada salmaq yerinə düşər ki, 2000 və 2016-cı il seçkilərində ölkə üzrə səslərin çoxluğunu toplamasına baxmayaraq, prezident seçilməyən hər iki namizəd Demokrat Partiyasının namizədi idi. Bu, Harrisin ölkə səviyyəsində daha çox səs ala biləcəyini göstərən sorğulara əsaslanaraq, Harrisin seçkidə qalib gələcəyi qənaətinə gəlməkdə ehtiyatlı olmaq lazım olduğuna işarə edir.

1946-2020-ci illər arasında keçirilən 20 Prezident seçkisini federativ əyalətlər əsasında araşdırdığımızda Demokrat Partiyasının çox yüksək ehtimalla qalib gələcəyi federasiya əyalətlərinin sayı 19; Bu ştatlardan Seçki Şurasına seçilən üzvlərin ümumi sayı 223 nəfərdir. Demokratların böyük ehtimalla qalib gələcəyi xüsusi bölgə statusuna malik olan Vaşinqtondan seçiləcək üç üzvü nəzərə alsaq, bu rəqəm 226-ya çatır. Digər tərəfdən, Respublikaçıların çox yüksək ehtimalla qalib gələcəyi federasiya əyalətlərinin sayı 24-dür; Bu ştatlardan seçiləcək Seçki Şurası üzvlərinin sayı 209-dur. Başqa sözlə, ən azı 226 üzvün Harris tərəfindən, ən azı 209 üzvün isə Tramp tərəfindən seçiləcəyi ehtimalı böyükdür. Buna görə də seçkinin qalibi qalan 7 federasiya ştatında seçkilərin nəticələrinə görə müəyyənləşəcək. Bu ştatlardan cəmi 93 üzv seçiləcək və bu üzvlərin bölgüsü belədir: Nevada (6), Arizona (11), Viskonsin (10), Miçiqan (15), Corciya (16), Pensilvaniya (20) ) və Şimali Karolina (16). 1946-cı ildən bu yana keçirilən 20 prezident seçkisindən 18-ni rəqabətli seçki dairələri arasında yer alan Nevada ştatında seçkilərdə qalib gələn namizəd qazanıb. Nevada ştatında seçkilərdə məğlub olmasına baxmayaraq prezident olmağı bacaran iki ad bunlardır: Cimmi Karter (1976) və Donald Tramp (2016)".

***Səbinə Hüseynli***

# COP29-un özəlliyi nədən ibarətdir?








"Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində zəngin təcrübəyə malikdir. COP29 Azərbaycan üçün çox əhəmiyyətlidir". Bu sözləri SİA-ya açıqlamasında iqlimşünas, Bakı Dövlət Universitetinin müəllimi Aytən Məhərrəmova deyib. O bildirib ki, iqlim dəyişiklikləri ilə bağlı məsələləri özündə ehtiva edən COP29 tədbiri Azərbaycanın təşkil edəcəyi ən böyük tədbir olacaq:

"COP29 ölkəmiz üçün əhəmiyyətlidir, çünki:

1. Paris Sazişi öhdəlikləri: Ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədə götürdüyü öhdəlikləri təqdim etmək və beynəlxalq dəstək əldə etmək imkanıdır.

2. İqlim dəyişikliyinin təsirləri: Quraqlıq və su çatışmazlığı kimi problemlərə qarşı adaptasiya tədbirləri üçün beynəlxalq maliyyə və texniki dəstək almaq şansı verir.

3. Bərpa olunan enerji: Külək və günəş enerjisi sahəsində inkişafı təşviq etmək və beynəlxalq investisiyalar cəlb etmək üçün platformadır.

4. İqtisadi keçid: Neft-qaz iqtisadiyyatından "yaşıl" texnologiyalara keçidi sürətləndirmək üçün imkan yaradır.

Ümumiyyətlə, Azərbaycan müəyyən hazırlıqlara malik olsa da, daha effektiv iştirak üçün əlavə addımlar atılması faydalı olar.

Azərbaycan COP29-a qismən hazırdır, lakin tam hazırlıq üçün bəzi addımlar lazımdır:

1. Paris Sazişi öhdəlikləri: Emissiyaların azaldılması üzrə planlar mövcuddur, lakin irəliləyişləri sürətləndirmək lazımdır.

2. Bərpa olunan enerji: Layihələr inkişaf edir, amma daha çox investisiya və texnologiya tələb olunur.

3. Beynəlxalq dəstək: Maliyyə və texniki dəstək üçün daha güclü strategiyalar təqdim edilməlidir".

***Söylü Ağazadə***

# ABŞ oliqarxiyası Trampı aradan götürəcək - Amerikalı ekspertlər

## "Bizim oliqarxlar Rusiyanı zəiflətmək üçün Ukraynadan silah kimi istifadə edir, çünki ABŞ siyasətinin ən mühüm vəzifəsi Rusiyanı diz çökdürməkdir"

***Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Trampın həyatına qəsd cəhdləri Amerika siyasətində zorakılığa doğru tendensiyanın olduğunu göstərir. Bu fikri CNN bildirib. Qeyd olunur ki, seçki kampaniyası zamanı bu cür hadisələr amerikalıların odlu silahlara asan çıxışı ilə daha da güclənən "zorakılığa gizli meyl"dən xəbər verir. CNN xəbərdarlıq edir ki, prezidentlik yarışı zamanı belə hadisələr ölkəni daha da "qaranlıq yola" apara bilər.***

Bu, həqiqətən də bir növ tendensiya kimi görünür- bir seçki kampaniyasında eyni namizədə qarşı ikinci sui-qəsd cəhd. Bunu necə başa düşmək olar? Təsadüf? Yoxsa ABŞ-da bəzi qüvvələrin Trampdan o qədər narazı olduğunu, hətta onun Ağ Evə düşməməsi üçün onu fiziki olaraq aradan qaldırmağa belə hazır olduqlarını güman etmək məqbuldurmu?

Tanınmış amerikalı ekspertlər Caliber.Az üçün bu sualları cavablandırıb. Şərhləri oxucularımıza təqdim edirik.

Analitik, publisist, professor Qriqori İoffe qeyd edir ki, Tramp şübhəsiz ki, bəzi qüvvələrə sərf etmir.

"Bu o qədər aydındır ki, hiyləgərlik etməyin faydası yoxdur. O, kəşfiyyat strukturlarına, oliqarxiyanın əksəriyyətinə- xüsusən də hərbi-sənaye oliqarxiyasına və Vaşinqton bürokratiyasının əhəmiyyətli hissəsinə sərf etmir. Lakin bununla belə onların hər iki cəhdi təşkil etmələri nəticə verməyib. Belə bir iddia irəli sürmək üçün sübut lazımdır, məndə, əlbəttə ki, belə sübutlar yoxdur. Bununla belə, ciddi inandırıcı dəlil Demokratlar Partiyasına xidmət edən mətbuatın Trampa gecə-gündüz böhtan atmasıdır. Üstəlik, birbaşa zorakılığa çağırışları. Əgər səkkiz-doqquz il ərzində hər gün sizi Hitlerə bənzədib ölkə üçün, xüsusən də "demokratiyamız" üçün ekzistensial təhlükə olduğunu söyləyirlərsə, əmin ola bilərsiniz ki, əqli cəhətdən ən zəif adamlar silaha əl atacaqlar. Silahın əlçatanlığının azaldılması belə həlledici əhəmiyyət kəsb etməz, çünki bu insanlar onsuz da onu əldə edəcəklər",- professor deyir.






Bununla belə, onun sözlərinə görə, vəziyyətin ironiyası ondan ibarətdir ki, Tramp zorakılığa çağırışda ittiham olunur, lakin zorakılığa məruz qalan şəxs odur.

"Bizim demokratiyaya" təhlükə isə senzuranı canfəşanlıqla tətbiq edən və məhkəmə sistemini opponentlərə qarşı yönəlmiş siyasi araşdırma silahına çevirən siyasi spektrin əks tərəfindən gəlir. Məntiqi dairəni bağlamaq üçün onu da vurğulaya bilərik ki, Demokratlar Partiyası Trampın qarşı çıxdığı korporativ-bürokratik dairələrin maraqlarını ifadə edir",- ekspert qeyd edib.



Siyasi şərhçi Con Varoli öz növbəsində bildirib ki, bu, həm amerikalıların, həm də xaricdəki insanların Amerika prezidentinin nə olduğunu tam başa düşməməsindən başlamalıdır.

"Nəzərə almalıyıq ki, biz ona ali baş komandan deyirik. Yəni, prezident ilk növbədə, qoşunlarımızın komandanıdır, hərbi rəhbərdir. Amerika prezidentinin əsas vəzifəsi xarici siyasət aparmaqdır. Müasir ABŞ prezidentinin vəzifəsi imperiyamızın gücünü və təsirini genişləndirməkdir. Çünki yalnız xarici siyasət məsələlərində Amerika prezidenti məhdudiyyətsiz, mütləq hakimiyyətə malikdir.

Bu, onun daxili siyasətdəki roluna aid deyil, orada hər şey daha mürəkkəbdir, çünki bizdə federal sistem, bir çox ştatlar, Konqres, Ali Məhkəmə və bir çox başqa orqanlar var. Yəni daxili siyasətdə Amerika prezidenti oyunçulardan yalnız biridir və o qədər də çəkisi yoxdur. Amerika daxilində əsl güc oliqarxiyanın əlindədir. Prezident isə onlara xidmət etməlidir. Seçkilər sırf şou üçün keçirilir. Ağ Evdə kimin olması o qədər də vacib deyil, çünki müxtəlif prezidentlərin dövründə xarici siyasət çox dəyişmir. Çünki bizim elita müəyyən edib ki, ABŞ-ın xarici siyasətinin bəzi istiqamətləri heç vaxt dəyişməyəcək. İstənilən prezidenti məcbur edirlər ki, bu kursdan getsin, bu yoldan dönməsin.






Bəs Donald Trampın problemi nədir? İndi onlar artıq görürlər ki, əgər o, yenidən prezident olarsa, bu, birinci dövründəki kimi deyil, tamamilə fərqli Tramp olacaq. Və oliqarxiya üçün onunla məşğul olmaq çox çətin olacaq. Onlarla məsləhətləşmək fikrində deyil. Tramp açıq şəkildə qəzəblidir və oliqarxiyanın hakimiyyətinə son qoymaq istəyir. Ona görə də ondan çox qorxurlar və başa düşürlər ki, heç bir halda onun Ağ Evi yenidən işğal etməsinə icazə vermək olmaz.

Bu səbəbdən biz artıq namizədin həyatına ikinci cəhdin şahidi oluruq. İkinci hücumçu haqqında onun Ukrayna ilə bağlı olduğunu deyirlər. Aydındır ki, bizim oliqarxlar Rusiyanı zəiflətmək üçün Ukraynadan silah kimi istifadə edirlər. Çünki Amerikanın xarici siyasətinin ən mühüm vəzifəsi Rusiyanı diz çökdürməkdir. 25 ildir ki, belədir, çünki NATO-nun şərqə doğru genişlənməsi düz dörddə bir əsr əvvəl başlayıb. Donald Tramp isə deyir: yox, biz Rusiya ilə razılığa gəlməliyik və NATO-nu dayandırmalıyıq. Aydın məsələdir ki, bu niyyətlər bizim elitamızın, oliqarxiyamızın planlarına böyük müdaxilə edir. Buna görə də Trampı kənarlaşdırmaq lazımdır- bu, onların əsaslandırmasıdır. Hər halda belə düşünürlər.

Bununla belə, mənə aydındır ki, Kəmalə Harris qalib gələcək, çünki bizim oliqarxlar heç vaxt Trampın qalib gəlməsinə imkan verməyəcəklər. Tramp sağ ikən onu öz maraqlarına təhlükə hesab edirlər və hətta noyabrın 5-dən sonra da sui-qəsdlər olacaq, məncə. Ya da həbsxanaya göndəriləcək və orada öldürüləcək. Oliqarxiyamızı dayandırmaq mümkün deyil. Onlar isə öz planlarına uyğun olaraq Rusiyanı fəth etmək üçün müharibəni davam etdirəcəklər",- Varoli bildirib.

***Tərcümə - Elçin Bayramlı***

# ABŞ-ın Ermənistanı silahlandırması revanşizmi alovlandırır

## USAID haylara beş illik yardım paketini iki dəfədən çox artıraraq 120 milyon dollardan 250 milyon dollara çatdırıb

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) Ermənistana beş illik yardım paketini iki dəfədən çox artıraraq 120 milyon dollardan 250 milyon dollara çatdırıb. Təbii ki, Azərbaycan tərəfi hələ bir neçə ay əvvəl bildirmişdi ki. ABŞ, Avropa İttifaqı və Ermənistan arasında aprelin 5-də Brüsseldə imzalanan 20 maddəlik sənəd məhz Ermənistanı silahlandırmaq üçündür. Sonrakı hadisələr Azərbaycanın bu iddiasında heç də yanılmadığını göstərdi. Çünki həmin üçtərəfli görüşdən sonra Ermənistana hərbi dəstək göstərildi, ona maliyyə yardımı edildi. Ən başlıcası isə Azərbaycanla sərhədyanı ərazilərdə hərbi infrastruktur yaradılmağa başlanıldı. ABŞ, Avropa İttifaqı və Ermənistan arasında aprelin 5-də Brüsseldə imzalanan 20 maddəlik sənəddən bəzi məqamları xatırlatmaq istərdik. Sənəddə bildirilib ki, Birləşmiş Ştatlar İrəvana Strateji Müdafiə İcmalının aparılmasına və bu ölkənin yeni hərbi doktrinanın hazırlanmasına ekspert dəstəyi verəcək. ABŞ Ermənistanın hərbi və müdafiə qabiliyyətini əhəmiyyətli dərəcədə inkişaf etdirmək, sərhəd nəzarəti və təhlükəsizliyini gücləndirmək üçün lazımi yardım göstərəcək, xüsusilə İranla sərhədə diqqət yetirəcək. Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə sabiq xüsusi nümayəndəsi Toivo Klaarın Ermənistan KİV-nə verdiyi müsahibədə "ermənilərin Qarabağa qayıdışı"nı xüsusi məsələ kimi vurğulaması da yuxarıda qeyd etdiyimiz siyasətin tərkib hissəsidir.












Bu gün ABŞ-ın Cənubi Qafqazda möhkəmlənmək istəyi və bu istəyə uyğun Ermənistana hərbi yardımlar etməsi də qəbuledilməzdir. Xüsusilə Ağ Ev bir tərəfdən bölgədə Azərbaycanla Ermənistan arasında sülh prosesini dəstəklədiyini bəyan edir, digər tərəfdən Ermənistan ordusu ilə hərbi əməkdaşlığa, hətta hərbi təlimlərə başlayır. Hər kəsə də bəllidir ki, İrəvanın hələ uzun müddət nəinki qalib gəlməyə, hətta müharibə aparmağa nə resursu, nə də qüdrəti var. Burada əsas məqsəd ABŞ-ın Rusiyanı hər vəchlə bölgədən sıxışdırıb çıxarmağa çalışmasıdır. Xüsusilə son bir neçə ildə Rusiya ilə Ermənistan arasındakı siyasi gərginlik ABŞ-ı bu işlərə həvəsləndirir.

Məlumdur ki, Ermənistandakı anti-Rusiya əhval -ruhiyyəsinin yaradıcısı və bu prosesi həyata keçirən baş nazir Nikol Paşinyandır. O, hakimiyyətə gəldiyi ilk gündən Avropaya, xüsusilə ABŞ-a inteqrasiya etmək xətti tutub. Hətta bu ölkədəki bəzi ərazilərdən rus ordusunun çıxarılması reallaşdı. Lakin bununla belə Paşinyanın hədəfində Rusiyanın 102-ci ordusunun çıxarılması da var. Onların yerini isə Fransa və ABŞ hərbçiləri tutmalıdır. Artıq ilk olaraq Ermənstanda hər iki ölkənin hərbi əməkdaşları yerləşdriliblər. Xüsusilə ABŞ hərbçilərinin Hayastanda təlimlər keçməsi, təcavüzkar orduya təimatçılar göndərilməsi Rusiya-Ermənistan münasibətlərini daha da gərginləşdirib. Eyni zamanda, ABŞ-ın hərbi yük təyyarələrinin dəfələrlə İrəvanın "Zvarnots" hava limanına enməsi və Ermənistana silah daşıması da artıq bir danılmaz faktdır. ABŞ hərbçiləri isə birbaşa Zəngəzur dəhlizi istiqamətində yerləşdirilirlər .

Bu gün ABŞ və Fransanın ən böyük hədəfi Qarabağı könüllü tərk etmiş erməniləri yenidən qaytarmaqdır. Halbuki bu məsələdə Ermənistan özü susur. Hətta 2023-cü ilin sentyabrın 20-də bir günlük antiterror tədbirləri nəticəsində ləğv edilən separatçı xuntanın İrəvana qaçmış tör-töküntülərinin fəaliyyətinə və ofis açmalarına Paşinyan hakimiyyəti icazə vermədiyi halda, ABŞ və Fransa onların anti-Azərbaycan fəaliyyətlərini yenidən diriltmək istəyirlər. Digər dəhşətli məsələ ABŞ-ın Ermənistanda yeni nüvə reaktoru yaratmağa başlamasıdır. Bu isə onsuz da bütün region üçün böyük təhlükə kəsb edən "Metsamor" Atom Elektrik Stansiaysını daha da gücləndirir. Yəni, bu məsələdə amerikalı mütəxxəsislər Ermənistanın seysmik zonada yerləşməsini və nüvə qaçaqmalçılığını nəzərə almaq istəmirlər.

Bundan başqa, Ermənistanda ABŞ-la birgə hərbi təlimlərin keçirilməsi də Ağ Evin irəvana hərbi yardımı kimi dəyərləndirilməlidir.

USAID-in rəhbərinin tarixdə qalmış qondarma rejimin keçmiş dövlət naziri, bu gün isə Bakı təcridxanasında "dincələn" Ruben Vardanyanla sıx əlaqələri olub. O da məlumdur ki, vaxtı ilə Vardanyanın maliyyələşdiridiyi Avropa mükafat komitəsində USAID-in rəhbəri Samanta Pauerin də fəal iştirak edirmiş. Bununla da bir daha aydın görünür ki, ABŞ dövlət maraqlarının reallaşdırılması ilə məşğul olan USAİD erməni lobbisinin əlində bir oyuncaqdır. Bir daha vurğulamaq lazımdır ki, ABŞ və onun himayəsindəki beynəlxalq təşkilatlar regionda Ermənistanı öz bastionuna çevirmək istəyirlər. Xüsusilə Fransa tərəfindən Ermənistana göstərilən hərbi və siyasi dəstək bilavasitə Vaşınqtondan koordinasiya edilir.

ABŞ-ın məsələyə ən ədalətsiz yanaşması isə ondan ibarətdir ki, 30 il torpaqlarımız işğal altında olanda bu ölkə Azərbaycanın ərazi bütövlüyünü və sərhəd toxunulmazlığını hazırda Ermənistanın sərhəd toxunulmazlığı qədər xatırlatmırdı. Hazırda işğaldan azad edilmiş ərazilərin vaxtilə minalanması keçmiş məcburi köçkünlərin məskunlaşmalarına ən böyük təhlükədir. Çünki Azərbaycan minalardan ən çox çirklənmiş ölkələrdən biridir. Lakin ABŞ minaların təmizlənməsi proqramlarına mübarizəyə real dəstək vermir. Görünən odur ki, Qarabağa və Şərqi Zəngəzura azərbaycanlıların qayıdışı ABŞ-ı ciddi narahat edir.

Bundan başqa, ABŞ Ermənistana siyasi, iqtisadi və xüsusən hərbi dəstək olmaqla işğalçı ölkədə revanşizmin alovlanmasına zəmin yaradır. ABŞ regionda real sülh istəyirsə Ermənistana birtərəfli dəstəyi (xüsusən hərbi) dayandırmalıdır. Ermənistan hələ də nə KollektivTəhlükəsizlik Müqaviləsi Təşkilatından, nə Avrasiya İqtisadi İttifaqından çıxmayıb. Ermənistanda Rusiyanın 102 saylı hərbi bazası, Rusiya-Ermənistan birgə hərbi qruplaşması, birgə havadan müdafiə sistemləri fəaliyyət göstərir. Artıq son günlər Ermənistan rəsmiləri Rusiyaya yenidən reveranslara başlayıb. Sonda belə ola bilər ki, Ermənistan elə Rusiya orbitində qalsın.Belə olacağı təqdirdə itirən ABŞ olacaq. Çünki yaratdığı gərginliyə görə regionda heç bir dövlət onunla sıx əməkdaşlıq etməkdə maraqlı olmayacaq.

***Elçin Zaman***



# Qarabağın inciləri: Xanbağının Bülbülü

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*







***Məmmədov Murtuza Məşədi Rza oğlu. Bu ad sizə kimisə xatırlatdı? Yaşlı nəsil bəlkə də nəsə xatırlayar, amma orta və gənc nəsil üçün qeyri-müəyyənlik yaranacaq. Çünki biz onu Murtuza kimi deyil, Bülbül deyə tanımışıq. Azərbaycan opera müğənnisi, mahir təsnif ifaçısı, musiqi folkloru tədqiqatçısı, Azərbaycan professional vokal sənətinin banisi, SSRİ xalq artisti, Stalin mükafatı laureatı, adını xalqın verdiyi bülbül avazlı Bülbül.***

"Qarabağın inciləri" silsiləsinə başlayandan bəri hər yazıda heyifsləndiyim bir məqam var ki, o da haqqında yazdığım əfsanələrlə eyni dövrdə yaşamamağım, onları canlı görə bilməməyimdir. Lent yazılarını dinlədikcə, izlədikcə o nəhəng istedadları canlı dinləyənlərin, onlarla birbaşa ünsiyyətdə olanların nə qədər şanslı olduğunu düşünürəm. Məşhur bir deyim var, bütün dahilər öz zamanının diqtəsi, mühitinin təsiri ilə yetişir. Bülbülü yetişdirən mühit də Azərbaycanın sənət ocağı, mədəniyyət ocağı Qarabağ olub. O 22 iyun 1897-ci ildə Şuşa yaxınlığında, hazırda Xankəndinin cənub ərazisi olan Xanbağı adlanan yerdə anadan olub.

6 uşaqlı ailə olsa da 5 uşaq rəhmətə gedir, Murtuza tək övlad olur. O hələ körpə ikən anası da dünyasını dəyişir, atası başqası ilə evlənir. Analığı körpə Murtuzaya əsl ana olur, qayğısını çəkir. Oxumaq həvəsi onda lap körpəlikdən baş qaldırır, zümzüməsini eşidən səsinə valeh olur. Bu bacarığı onu 10 yaşında ikən Şuşa mollaxanasında musiqi təhsilinə qədər aparır, 2 ilini orada musiqinin sirlərini öyrənməyə həsr edir. Bu ərəfədə ona xalq arasında bülbül kimi oxuyan, sonralar isə sadəcə Bülbül deyə xitab edirlər. 1909-cu ildə, 12 yaşında ikən Gəncəyə köçən Bülbülün məlahətli səsinin sorağı ölkənin hər tərəfinə yayılır. O, tez-tez ətraf bölgələrə, o cümlədən Tiflisə, məclislərə dəvət alır, müxtəlif konsert və tamaşalar təşkil edilir.

1912-ci ildə, Bülbülün 15 yaşı olanda o görkəmli Azərbaycan şairi Abbas Səhhətlə tanış olur. Gənc Bülbülə müəllimlik edən Abbas Səhhət bu istedadlı gəncin savadını artırmasına, ədəbiyyat və incəsənətə dair məlumatlarını dərinləşdirməsinə kömək edir. Bülbül rus dilini də Abbas Səhhətdən öyrənir, onun köməyi ilə rus mədəniyyətini, dramaturgiyasını kəşf edir. Müəlliminin sayəsində onun səs-sorağı hər yerə yayılır, ölkənin hər yerindən ziyalılar, sənət adamları onunla maraqlanmağa başlayırlar. 1920-ci ildə 23 yaşlı Bülbülü Bakıdakı Opera teatrına dəvət edirlər. Bülbül peşəkar sənət yolunda ilk addımlarını Gəncədən Bakıya doğru beləcə atır. Bakıda yaşamağa başlayan Bülbül elə həmin ildən də Opera teatrında solist kimi çıxışlarına başlayır.

Bülbül bundan sonra sənətinin peşəkar icraçısı olmaq yolunda təhsilini davam etdirir, 1921-ci ildə Konservatoriyaya daxil olur, 1927-ci ildə bitirir. Bundan sonra dövlət onu təhsilini davam etdirmək üçün İtaliyanın Milan şəhərinə göndərir. 1931-ci ilə kimi Milan Konservatoriyasında, Cüzeppe Anselmi, Delliponti və Qraninin dərslərini alaraq mükəmməl vokal təhsilibi tamamlayır. 1931-ci ilin oktyabrında İtaliyadan vətənə qayıdan gənc tenor Azərbaycan Dövlət Konservatoriyasında dərs deməyə başlayır. 1933-cü ildən professional tenor olaraq bütün SSRİ-yə , eləcə də xarici ölkələrə qastrol səfərlərinə çıxır. 1938-ci ildə SSRİ xalq artisti adına layiq görülən Bülbül 1950-ci ildə SSRİ Dövlət Mükafatı laureatı da olub. 1940-cı ildə konservatoriyanın professoru olur, 1950-ci ildə SSRİ Dövlət Mükafatı laureatı, daha sonra Azərbaycan SSRİ Ali Sovetinin deputatı seçilir. İki dəfə Lenin Ordeninə, iki Qırmızı Əmək Bayrağı ordeninə, Şərəf nişanı ordeninə, İtaliyanın Qaribaldi ordeninə layiq görülür.





Bu gün sevərək izlədiyimiz bir çox filmimizdə, operamızda qəhrəmanın ilk səsləndirmələri ona məxsus olub. Üzeyir Hacıbəyovun "Əsli və Kərəm" operasında Kərəmin, Müslüm Maqomayevin "Nərgiz" operasında Əlyarın, "Arşın mal alan" operettasında Əsgərin, Əfrasiyab Bədəlbəylinin "Nizami" operasında Nizaminin,"Koroğlu" operasında Koroğlunun, Niyazinin "Xosrov və Şirin" operasında Fərhadın, Qara Qarayev və Gövdət Hacıyevin "Vətən" operasında Aslanın, R.M.Qliyerin "Şahsənəm" operasında Qəribin siması, səsi olan Bülbül mükəmməl səhnə performansı, məlahətli səsi, güclü ifaçılığı ilə tamaşaların anşlaqla keçməsinə səbəb olur. Onun Azərbaycanın musiqili teatrına bəxş etdiyi unudulmaz töhfə heç nə ilə müqayisə edilməyəcək qədər böyükdür.

Bülbülün səhnə imkanları, səsi, bacarığı o qədər çeşidli və rəngarəng olub ki, o yerli sənət nümunələrindən başqa Qərbi Avropanın, rus klassiklərinin operalarını da böyük ustalıqla ifa edib. C.Verdinin "Riqoletto", İ.Bizenin "Karmen", C.Puççininin "Toska", İ.Massnenin "Verter", S.Raxmaninovun "Aleko", N.A.Rimski-Korsakovun "May gecəsi", Çileanın "Arlezianka", R.M.Qliyerin "Şahsənəm" operalarında canlandırdığı obrazlar onu bir çox ölkələrdə tanınan və tələb olunan tenor kimi məşhurlaşdırıb. Bülbül həm də Asəf Zeynallının "Ölkəm", Üzeyir Hacıbəyovun "Sənsiz", "Sevgili canan" romanslarının ilk ifaçısı kimi tarixə düşüb.

Səsin diapozonu, rəngi o qədər möhtəşəm olub ki, opera ilə xalq mahnıları arasında ustalıqla səs dəyişdirə bilib. Xalq mahnılarının mahir ifaçısı olan sənətkar "Qara gözlər", "Süsən sünbül", "Çal oyna", "Yaxan düymələ", "Segah təsnifləri" kimi bir çox mahnını ubudulmaz edib. Bəlkə də Bülbül kimi bir ifaçı olmasaydı o dövrdə Azərbaycan bəstəkarlarının kamera-vokal əsərləri bu qədər məşhurlaşa, tamaşaçı rəğbəti qazana bilməzdi.

Bülbül 3 dəfə ailə qurub, birinci həyat yoldaşı Zeynəb xanımla 15 il evli qalıblar, lakin övladları olmayıb. Ayrıldıqdan 4 il sonra Zeynəb xanım dünyasını dəyişir. Tenor ikinci dəfə öz həmkarı, səhnədə tərəf müqabili, "Koroğlu" operasında Nigar obrazının ilk qadın ifaçısı olan Gülarə İsgəndərova ilə ailə qurur, 8 il birlikdə olurlar, Emin adlı bir övladları olur. 8 ildən sonra ayrılırlar və Bülbül 3-cü dəfə Adeliada adlı anası gürcü, atası azərbaycanlı xanımla evlənir. Evləndikləri vaxt onların arasındakı yaş fərqi 25 il olub. Bu evlilikdən onların 2 övladı olur, Çingiz və Polad. Bülbül dünyasını dəyişəndə Çingizin 23, Poladın isə 16 yaşı olub.

Oğlanlarından yalnız Polad atasının yolunu davam etdirib, mədəniyyətimizə və incəsənətimizə böyük töhfələri olub, uzun illər ölkəmizin Mədəniyyət naziri işləyib. O, soyadını dəyişərək atasının adını öz soyadı kimi rəsmiləşdirib. Böyükdən kiçiyə hamımızın tanıdığı Polad Bülbüloğlu həyatdadır və bu ilin avqustunadək Rusiyada səfir kimi fəaliyyət göstərirdi. Bu ilin sentyabrında keçirən parlament seçkilərində 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsindən Milli Məclisə deputat seçildi. Çingiz Məmmədov isə daha çox dövlət strukturlarında fəaliyyət göstərib, 2020-ci ildə dünyasını dəyişib.

***Lalə Mehralı***

SƏS
20 sentyabr 2024-cü il

# “Xarab olmayan çörək artıq kimyalaşıb”

## ƏHALİYƏ XƏBƏRDARLIQ



”Ümumiyyətlə istehsalçılar və satıcılar malın sonsuz uzunömürlü olmasını istəyirlər. Lakin onların bu istəyinin qarşısını alan standartlar, dünyanın istehlakçı təşkilatı var. Daim buna qarşı mübarizə aparılır. Məsələn, illər ərzində məni dəfələrlə müəyyən mal istehsalçıları çağırıblar ki, gəlin, bir protokol imzalayaq. Əlbəttə pul təklif ediblər ki, pul naminə protokol imzalayaq, bu malın ömrü uzadılsın. Mən bir dəfə də burada iştirak etməmişəm. Lakin bir türk aliminin bir sözü var, deyir ki, bütün dünya istehlakçılarının aldatmaq üçün 20 nəfər pula satılmış professoru dünyada tapmaq kifayətdir. Lakin bəzi adamlar guya qida mütəxəssisləri filan yığılıb, elə qərarlar qəbul ediblər. AİB həmin malları boykot edib. Bu illər öncə olubdur”. Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.

Eyyub Hüseynov sözlərinə belə davam edib: ”Çörəklərin ümumiyyətlə saxlama müddəti orta hesabla 72 saatdan artıq deyil. 72 saatdan az vaxtda xarab olan çörəklər bizi qayğılandırır. Artıq qalanda xarab olmayan çörək də bizi qayğılandırır. Çünki artıq qaldıqda xarab olmayan çörək artıq kimyalaşmış çörəkdir. Tez xarab olan çörək isə artıq bakteriyalarla doludur.

Tez xarab olan çörəyin içərisində yapışqanlar əmələ gəlir. Bu o deməkdir ki, çörək kartof xəstəliyi ilə xəstələnibdir və daha bunu yemək olmaz. Bu da mədə-bağırsaq xəstəlikləri əmələ gətirə bilər. Əlbəttə, mağazada satılan çörəyə bir gün sonranın tarixi vurulması bu istehsalçının və satıcının istehlakçını aldatmaq istəyidir. Bir gün fərqlə zərərlənmə olmaz. Lakin artıq bu istehlakçının aldadılması və çörəyin keyfiyyətdən düşməsinin göstəricisi ola bilər. Əslində belə çörək satılmamalıdır və bunun qarşısı alınmalıdır. Biz illər boyu malların üzərinə 30 fevral 59 mart yazılmasını da görmüşük. Yəni malların üzərinə bəzən səhv edib belə yazılar da yazırlar, bəzən də şüurlu şüursuz surətdə bunu yazırlar. Bu yolverilməzdir. Belə olan halda istehlakçılar AQTA-nın 1003 telefon xətti ilə məlumat verməlidirlər”.

*Ayşən Vəli*


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# “Qarabağ” - ”Neftçi” matçının hakimləri açıqlandı




Futbol üzrə Misli Premyer Liqasında 7-ci turun hakimləri müəyyənləşib. Turun mərkəzi görüşü olan ”Qarabağ” - ”Neftçi” oyununu FİFA referisi Əliyar Ağayev idarə edəcək. Ona Zeynal Zeynalov, Akif Əmirəli, Əli Əliyev (dördünü hakim) kömək edəcək. Oyunun VAR hakimi İnqilab Məmmədov, AVAR hakimi isə Namik Hüseynov təyin olunub.

# Daşınmaz əmlak bazarında son vəziyyət necədir?



“Daşınmaz əmlak bazarında hal-hazırda ciddi, əhəmiyyətli, dinamikaya təsir göstərən iqtisadi səbəb müşahidə olunmur”. Bu sözləri SİA-ya açıqlamasında əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı deyib.

O bildirib ki, bazarı ümumilikdə stabil və passiv qiymətləndirmək olar: ”Çünki müvafiq İcra Hakimiyyəti Orqanının Əmlak Məsələləri Dövlət Xidməti yanında katastr və reyestr pablik hüquqi şəxsin açıqlamalarından da görünür ki, ötən illə müqayisədə bu ilin ötən dövrü ərzində aparılan əməliyyatların sayında 30%-dən artıq azalma müşahidə olunur. Bu il ümumilikdə daşınmaz əmlak üçün ötən 2-3 illə müqayisədə daha passiv il kimi qiymətləndirilə bilər. Hal-hazırdakı vəziyyət də belədir. Hal-hazırda daşınmaz əmlak bazarında, mənzil bazarında dinamika aşağıdır. Bazara müraciətlərin sayında artım müşahidə olunmur. Hələ ki, yay mövsümünü tam olaraq bitmiş hesab etmək olmaz. Düşünürəm ki, bu tendensiya ən azından ayın sonuna qədər davam edəcək”.

”COP29-la bağlı bəzi bazar iştirakçılarının bu istiqamətdə ciddi, bazara təsir edəcək, əsaslı addım atacağını da düşünmürəm. Yəqin ki, biz daşınmaz əmlak bazarında, mənzil bazarında dinamikanın artımını daha çox məhz COP29-dan sonrakı mərhələdə müşahidə edəcəyik. İndiki halda bazar sabitdir. Yalnız kirayə mənzillərin qiymətində artım var. Bunun da səbəbləri bəllidir. Bu, mövsümə aid olan tələbə axını ilə daha çox bağlıdır. Amma son illərdə kirayə mənzil bazarında təklifin azalması və bu istiqamətdə daha çox bahalı mənzillərin təklifə çıxarılması yüksək tələb fonunda qiymətlərin daha çox artımına təkan verir. Bu mənada deyə bilərik ki, hal-hazırda yalnız kirayə mənzillərin qiymətində artımlar müşahidə olunur” - deyə o, əlavə edib.

*Söylü Ağazadə*

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700